www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 6 iyun 2017-ci il Çərşənbə axşamı № 120 (6734) Qiyməti 60 qəpik

**Xəbər**

## Azərbaycanlı gənc Moskvada bacısının gözü önündə intihar etdi

yazısı səh.14-də

**Gündəm**

### Prezident güc strukturları ilə bağlı mühüm qərarlar verdi




Məhərrəm Əliyev ədliyyə nazirinin müavini oldu; Sərhəd Qoşunlarının komandanı vəzifəsi ləğv edildi, Elçin Quliyev DSX rəisi təyin edildi

yazısı səh.3-də

### Ağ Ev Cənubi Qafqazı Rusiyaya təhvil verir?

yazısı səh.9-da

### Manat stabildir, qiymətlər isə bahalaşmaqda davam edir; bəs səbəb nədir...

yazısı səh.6-da

### "Hakimiyyət daxilində Rusiyanın "5-ci kolon"unu müdafiə edənlər var" - İqbal Ağazadə

yazısı səh.7-də

### Cənubi Qafqazın ən böyük media mərkəzi Azərbaycanda

yazısı səh.10-da

### Kremldən ərazi bütövlüyümüzə qarşı "pasport tələsi"

yazısı səh.11-də

### "Natiq Əliyev xəstəxanaya ürəyi dayanmış vəziyyətdə gətirilib, bu durumdan çıxarılıb" - Səfayə Əhmədova

yazısı səh.10-da

### İŞİD İraq və Suriyadan kənara yayılacaq - yeni təhlükə

yazısı səh.12-də

### Trampın mətbuata münasibəti... dünya mediasının "belini qırdı"

yazısı səh.13-də

**Ramazan ayının 11-ci günü**

İftar 20.24. İmsaq 03. 10-dək (QMİ)

11-ci günün duası: "İlahi, bu gün məni yaxşı əməllər etməyə həvəsləndir! Belə bir gündə məndə günah və əxlaqsızlığa qarşı nifrət oyat! Mənə qəzəb və cəhənnəm atəşini haram et! Ey, pənahsızların ən ulu Pənahı!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

## 3 ölkə xüsusi təyinatlılarının ortaq təlimini labüd edən şərt

# "QAFQAZ QARTALI" TƏLİMLƏRİNDƏ ƏSAS HƏDƏF: "QARABAĞDA MÜHARİBƏ BAŞLASA..."

Bakı-Tiflis-Qars dəmir yolunun işə düşməsi ərəfəsində situasiya qəlizləşir; yeni hərbi əməliyyatlar qızışacağı halda NATO-nun simpatiyası Azərbaycana olacaq - iddia; **erməni politoloq:** "Rusiya axıradək arxamızda durmayacaq, müharibə olsa, məğlub olacağıq..."




yazısı səh.8-də

## Kamal Abdullanın siyasi karyerasına Şeyx əngəli -sensasion iddia

Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər üzrə köməkçi vəzifəsinə təyin edilməyən sabiq müşavirin siyasi komandadan uzaqlaşdırılması "ehsan qadağası" ilə əlaqələndirilir; amma başqa versiya da var...

yazısı səh.5-də



*ÜAK prezidenti Fazil Qurbanov:*

**"Köhnə rəhbərliyin başısoyuqluğu, işi düzgün aparmaması vəziyyəti bu həddə gətirib"**

yazısı səh.3-də



*Vüqar Səfərli:*

**"Jurnalistlər üçün 3-cü bina da tikiləcək"**

yazısı səh.2-də



*Maqsud Mahmudov:*

**"Eldar Mahmudovun adamları Ali Məhkəmənin hakimini özlərinin xeyrinə qərar verməyə sürükləmək istəyirlər"**

yazısı səh.4-də

YENİ MÜSAVAT
N 120 (6734) 6 iyun 2017

# ÜAK prezidentindən "Yeni Müsavat"a sensasion açıqlamalar

## Fazil Qurbanov: "Köhnə rəhbərliyin başısoyuqluğu, işi düzgün aparmaması vəziyyəti bu həddə gətirib"

**2001-ci ildə yaradılan Ümumrusiya Azərbaycan Konqresinin (ÜAK) fəaliyyətinin dayandırılması ilə bağlı Rusiya Federasiyası Ali Məhkəməsinin verdiyi qərarın ləğv ediləcəyinə ümidlər hələ ki qalır. Əslində ötən ilin dekabrında ÜAK-ın yeni rəhbərliyinin seçilməsindən sonra Rusiya Ədliyyə Nazirliyinin quruma qarşı hücuma keçməsi və qeydiyyatla bağlı iddiasının təmin olunması üçün israrlı mövqe nümayiş etdirməsi çoxsaylı suallar və ehtimalların ortaya çıxmasına rəvac verib.**

*"Yeni Müsavat" olaraq bu mövzunun ortaya çıxdığı ilk gündən məsələni diqqətdə saxlamışıq, əlimiz çatan şəxslərdən mövqe almışıq, Rusiyanın 78 bölgəsini əhatə edən, təkcə Rusiyadakı milyonlarla soydaşımızın taleyi baxımından deyil, həm də dövlətimizin imici baxımından əhəmiyyətli rol oynaya biləcək nəhəng diaspor təşkilatımızın fəaliyyətini davam etdirməsi zərurətindən bəhs edən yazılar yazmışıq. Bu mənada ÜAK-ın prezidenti Fazil Qurbanovla danışmaq, nələrin baş verdiyinə onun cavablarını almaq üçün çox çalışdıq, nəhayət, telefon əlaqəmiz baş tutdu. Təşkilatın rəhbəri suallarımızı ətraflı cavablandırdı.*

***- Fazil müəllim, ÜAK-ın taleyi ilə bağlı işlər hansı səviyyədədir, təşkilatın yaşayacağına ümid edirsinizmi?***

- Biz indi apelyasiyaya hazırlaşırıq. Bilirsiniz ki, məhkəmə mayın 15-də olub, 29-da isə Ali Məhkəmə bizə qərarını təqdim edib. İndi o qərarla əlaqədar biz apelyasiya şikayətini hazırlayırıq.

***- ÜAK-ın ləğvinin arxasında ermənipərəst qüvvələrin dayandığı, prosesin siyasi mahiyyət kəsb etdiyi barədə versiyalar səslənir. Əslində nə baş verdi ki, Ədliyyə Nazirliyi təşkilatın qeydiyyatının ləğvi üçün hərəkətə keçdi?***

- Əslində siyasi, milli məsələlər yoxdur. Bəzi adamlar deyirlər ki, ermənilərin işidir, ya nə... Belə şey yoxdur. Burada köhnə rəhbərliyin səhvləri olub, sənədləri düzgün hazırlamayıblar, Rusiya Ədliyyə Nazirliyinin xəbərdarlıqlarına düzgün reaksiya verməyiblər. Köhnə rəhbərliyin başısoyuqluğu, işi düzgün aparmaması vəziyyəti bu həddə gətirib. Ona görə də biz bütün sənədləri hazırlayırıq. Yaxşı vəkillərimiz də var. Çalışırıq ki, iyunun 15-dək apelyasiya şikayətimizi hazırlayıb Ali Məhkəmənin Kollegiyasına təqdim edək. İndi bu məsələlərlə məşğuluq.

***- Deməli, siz burada siyasi motivlərin və ya ermənipərəst qüvvələrin rolunu tam istisna edirsiniz?***

- Birmənalı şəkildə. Bizim sənədləri hazırlayan vitse-prezident var, Ələsgər Tağıyev, onun səhvidir. O, qanuna düzgün əməl etməyib. Keçmiş rəhbərlik sənədlərin hazırlanmasını ona həvalə etmişdi. Ancaq o, bisavad kimi bu işləri düzgün həyata keçirməyib, odur ki, mən onu bu işlərdən uzaqlaşdırdım.

***- Yəqin ki, müxtəlif səviyyələrdə görüşləriniz də olur. Rusiyanın hakimiyyət nümayəndələri yaranmış vəziyyətə necə reaksiya verirlər?***

- Bəli, mən çox görüşlər keçirirəm. Rusiya Federasiyasındakı rəsmilərlə, Dövlət Dumasının deputatları ilə görüşlərim olur, onlarla işləyirəm. Həmçinin regionlardakı görüşlərimdə demişəm ki, bu təşkilatı bağlamaq olmaz, çünki onun əsasını Vladimir Putinlə ümummilli liderimiz rəhmətlik Heydər Əliyev qoyub. Odur ki, bu təşkilat bağlanmamalıdır! Özü də necə ola bilər ki, Rusiyanın 70 regionunda fəaliyyət göstərən bir təşkilat fəaliyyətini dayandıra bilər? Mən bu regionların hamısı ilə danışmışam. Hamısı da möhkəmdir, deyirlər ki, Fazil müəllim, biz sizinləyik, siz də möhkəm olun!

***- Sizinlə bağlı yüksək fikirlər eşitmişik, həm Rusiya hakimiyyət dairələri, həm Azərbaycan diasporu arasında nüfuz qazandığınız deyilir. Ötən ilin sonlarında təşkilata rəhbər seçilməyinizdən sonra ÜAK-ın qeydiyyatı ilə bağlı məsələnin gündəmə gəlməsi həm də sizə qarşı düşünülmüş bir oyun ola bilərmi?***

- Ola bilsin bəzi adamlar mənim təşkilata rəhbər gəlməyimi istəməyib. Çünki bilirdilər ki, mən onların qarşısını alacağam. Elə mən yeni seçiləndə öz məruzəmdə dedim ki, bəzi adamlar burada olmayacaq. Çünki bəzi adamlar var ki, təşkilata üzv olurlar, amma işləmirlər. Dedim ki, oğurluqla məşğul olanları, şəxsi ambisiyaları üçün çalışanları burada saxlamayacağam. Xəbərdarlıq etdim ki, burada işləyən adamlar öz vətənini sevənlər, cəmiyyətimizdə avtoritet sahibi olanlar olmalıdır. Çünki mən bura gəlmişəmsə, başqa cür ola bilməz! Həm də vaxtilə Heydər Əliyev mənim rəhmətlik qardaşıma demişdi ki, Aydın, sən bu təşkilatı yavaş-yavaş inkişaf etdir! O zaman qardaşım Moskvada rəhmətlik Heydər Əliyevin tövsiyəsi ilə bu təşkilatın inkişafı üçün çalışırdı. Mən ona görə bu təşkilatın rəhbərliyinə gəldim. Yoxsa mən cərrah adamam, elmi işlə məşğul oluram, Azərbaycan üçün neçə-neçə professor, elmlər doktoru yetişdirmişəm. Təkcə 14 azərbaycanlı



### "Mən yeni seçiləndə dedim ki, bəzi adamlar burada olmayacaq"

var bunların içində, hələ rusları demirəm. Həm burda, həm Azərbaycanda kitablarım, dərsliklərim var. Ona görə mən bura gəlmişəm ki, bu cəmiyyət işləsin, bağlanmasın, daha da inkişaf etsin. Ola bilsin dediklərim bəzi adamların xoşuna gəlməyib. 5-6 jurnalist var, əslində jurnalist deyillər, "kloun"durlar... Bunlar durub yalandan nələrsə danışıblar. Özləri də həmin tədbirdə iştirak ediblər. Amma mən onları kənarlaşdırdığım üçün onlar indi belə reaksiya verirlər.

### "ÜAK yaşayacaq, yaşamalıdır da. Çünki bu təşkilat bizim ümummilli liderimiz rəhmətlik Heydər Əliyev və Vladimir Putinin xeyir-duası ilə yaradılıb"

***- Təşkilatın qeydiyyatının ləğvi işində azərbaycanlı tanınmışların, həmçinin Abbas Abbasov və digərlərinin adı hallanırdı. Nə dərəcədə həqiqətdir?***

- Mən Abbas Abbasov, ya başqasının adını çəkmək istəmirəm, onlar özləri bilər. Mən gəlmişəm ki, bu təşkilatı, Heydər Əliyevin qardaşıma vəsiyyət etdiyi təşkilatı - Allah onlara rəhmət eləsin - saxlayım, daha yüksək fəaliyyətinə nail olum. Ancaq yuxarıda dediyim kimi, sənədləşmə işləri düzgün həyata keçirilmədiyi üçün belə vəziyyət yaranıb. Mənə bu etimad göstərilibsə, mən necə işləməyə bilərəm? Ona görə də bəyan etmişəm ki, burada bəzi şeylər olmayacaq, adamların şəxsi ambisiyalarına imkan verilməyəcək.

***- ÜAK-ın qeydiyyatının ləğvini Azərbaycandakı 2018-ci il prezident seçkilərinə Rusiyanın təzyiqi kimi qiymətləndirənlər də az deyil. Kremlin Azərbaycandakı seçkilərə "Milyarderlər ittifaqı" sayağı yeni sürprizləri ola bilərmi?***

- Ola bilsin. Mən istəmirəm ki, indi siyasi məsələlərdən danışım. Hər şey ola bilər. Amma mən siyasətə girişmək istəmirəm. Bu məsələ ilə bağlı isə əminliklə deyirəm ki, sənədləşmədəki problemlər gətirib bu vəziyyəti yaradıb. Son 1,5-2 il ərzində bəzi savadsız adamlar təşkilatı bu günə salıblar.

***- Kinorejissor Rüstəm İbrahimbəyov bizə müsahibəsində demişdi ki, ÜAK-ın qeydiyyatının bərpası işində rəhbərliyə dəstək verməyə hazırdır, sadəcə, hər hansı təklif almadığı üçün kənarda dayanmağa, müdaxilə etməməyə üstünlük verir.***

- İndi biz çalışırıq, işləyirik. Hamı çox sağ olsun. Bizə vəkillər lazım deyil, özümüz həll etməyə çalışırıq. Azərbaycan dövləti, bizim deputatlar, diaspor üzvləri də sağ olsun. Amma bir məsələ var ki, burada siyasi mövqe lazım deyil. Belə hallar adamları daha da qızışdırır. Kimlərsə deyir burada ermənilər, ya ruslar rol oynayıb. Biz gərək belə məsələlərin üzərində dayanmayaq. Burada sənədləşmə məsələsi var, düzgün hazırlamayıblar, yaxud reaksiya verməyiblər. Burada oturan bisavad adamlar Ədliyyə Nazirliyinin xəbərdarlıqlarını cırıb tullayıblar. Yəni belə səhvlər olub.

***- Müşahidələr göstərir ki, Azərbaycan prezidenti başda olmaqla, dövlət ÜAK-a çox ciddi önəm verir və onun yaşaması üçün çalışır...***

- Əlbəttə. Prezidentin də məsələdən xəbəri var. Bu boyda təşkilatın belə bir vəziyyətə düşməsi təbii ki, hər kəsi narahat edir.

***- Ümid edək ki, ÜAK fəaliyyətini davam etdirəcək və düşməni sevindirməyəcək...***

- ÜAK yaşayacaq, yaşamalıdır da. Çünki bu təşkilat bizim ümummilli liderimiz rəhmətlik Heydər Əliyev və Vladimir Putinin xeyir-duası ilə yaradılıb. Rusiyanın "Yedinaya Rossiya", "Narodnıy Front" təşkilatları yaxından əməkdaşlıq edirik. Ona görə də ola bilməz ki, fəaliyyətimiz dayandırılsın. Biz 15 iyunda apelyasiyanı verməyə çalışacağıq. Sonra da Ali Məhkəmənin Kollegiyasının nə zaman öz qərarını elan edəcəyini gözləyəcəyik...

❑ **Elşad PAŞASOY**





# Prezident güc strukturları ilə bağlı mühüm qərarlar verdi

## Məhərrəm Əliyev ədliyyə nazirinin müavini oldu; Sərhəd Qoşunlarının komandanı vəzifəsi ləğv edildi, Elçin Quliyev Dövlət Sərhəd Xidmətinin rəisi təyin edildi

**General-leytenant Məhərrəm Əliyev ədliyyə nazirinin müavini təyin edilib. Musavat.com xəbər verir ki, prezident İlham Əliyevin iyunun 5-də imzaladığı sərəncama əsasən Məhərrəm Əliyev ədliyyə nazirinin müavini vəzifəsini tutacaq.**

Bundan əvvəl o, Bakı Şəhər Baş Polis İdarəsinin rəsi, Azərbaycanın Özbəkistan respublikasındakı səfiri postlarında çalışıb.

M.Əliyevin axırıncı vəzifəsi Azərbaycan Respublikası Prezidentinin Müdafiə məsələləri üzrə köməkçisi xidmətinin müdafiə məsələləri şöbəsinin müdiri postu olub. Ancaq Prezident Administrasiyasında baş verən struktur dəyişikliyi zamanı onun şöbəsi ləğv edilib.

M.Əliyev 1951-ci ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda anadan olub.

O, 1973-cü ildən daxili işlər orqanlarında xidmət edib. 1978-ci ildə Moskva şəhər Orta Xüsusi Milis Məktəbini bitirdikdən sonra şəhər milis İdarəsi 131 saylı milis bölməsinə cinayət işləri üzrə əməliyyat müvəkkili vəzifəsinə təyin edilib.

1980-1992-ci illərdə Bakının rayon polis idarələrində cinayət-axtarış strukturlarında müxtəlif vəzifələrdə xidmət aparıb. 1985-ci ildə SSRİ Daxili İşlər Nazirliyinin Ümumittifaq Qiyabi Hüquq İnstitutunu bitirib. Bakı şəhərinin Nizami, Sabunçu, Xətai, Səbayel rayon polis idarələrində rəhbər vəzifələrdə çalışıb. 1993-cü ilin noyabrından 2007-ci ilin iyun ayınadək Bakı Şəhər Baş Polis İdarəsinin rəisi olub.

Prezident İlham Əliyev habelə "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Əsasnaməsinin, strukturunun və hərbi qulluqçularının və işçilərinin ümumi say tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan prezidentinin 2002-ci il 12 dekabr tarixli 823 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" fərman imzalayıb.

APA-nın məlumatına görə, "Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 12 dekabr tarixli 823 nömrəli fərmanı ilə təsdiq edilmiş Dövlət Sərhəd Xidmətinin Əsasnaməsinə əsasən Dövlət Sərhəd Xidmətinin rəisi - Sərhəd Qoşunlarının komandanı Dövlət Sərhəd Xidmətinə rəhbərlik edir. Dövlət Sərhəd Xidmətinin rəisi Azərbaycan prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

Dəyişikliyə əsasən Sərhəd Qoşunlarının komandanı vəzifəsi ləğv edilir. Dövlət Sərhəd Xidmətinin rəisi Dövlət Sərhəd Xidmətinə rəhbərlik edəcək.

İndiyə qədər Dövlət Sərhəd Xidməti rəisinin birinci müavini - Sərhəd Qoşunları Baş qərargahının rəisi və digər müavinləri vəzifələrinə, habelə ali zabit hərbi rütbəsi nəzərdə tutulmuş başqa vəzifələrə təyin və həmin vəzifələrdən azad etmə Dövlət Sərhəd Xidməti rəisinin təqdimatına əsasən Azərbaycan prezidenti tərəfindən həyata keçirilib.

Dəyişikliyə əsasən, Dövlət Sərhəd Xidmətində ali hərbi rütbəli vəzifələrə təyin və həmin vəzifələrdən azad etmə Dövlət Sərhəd Xidməti rəisinin təqdimatına əsasən Azərbaycan prezidenti tərəfindən həyata keçiriləcək.

Müvafiq olaraq sərhəd qoşunları Dövlət Sərhəd Xidmətinin strukturuna daxil edilib.

Prezident İlham Əliyevin digər sərəncamı ilə Elçin Quliyev Dövlət Sərhəd Xidmətinin rəisi təyin edilib.

❑ **Musavat.com**

YENİ MÜSAVAT

N 120 (6734) 6 iyun 2017

**Ötən həftə prezident İlham Əliyev Prezident Administrasiyası strukturunda dəyişiklik etdi. Bu dəyişikliklər nəticəsində prezident müşavirliyi institutu birdəfəlik ləğv edildi, bəzi şöbələrin bağlanması və birləşdirilməsinə qərar verildi. Qeyd edək ki, İqtisadi siyasət məsələləri üzrə dövlət müşaviri postunu Vahid Axundov, Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə dövlət müşaviri postunu isə Kamal Abdulla tuturdu.**

# Kamal Abdullanın siyasi karyerasına Şeyx əngəli - sensasion iddia

## Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər üzrə köməkçi vəzifəsinə təyin edilməyən sabiq müşavirin siyasi komandadan uzaqlaşdırılması "ehsan qadağası" ilə əlaqələndirilir; amma başqa versiya da var...

V.Axundova prezidentin iqtisadi blok üzrə köməkçiləri sırasında yer verilmədi. Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə dövlət müşaviri postunun bazasında isə prezidentin millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər üzrə köməkçisi - şöbə müdiri vəzifəsi yaradılsa da, K.Abdulla vəzifəsindən uzaqlaşdırıldı. Elə həmin gün Kamal Abdullanın Azərbaycan Dillər Universitetinə rektor təyin edilməsi təsdiqlədi ki, o da prezidentin köməkçisi statusunu itirib.

2014-cü ilin fevral ayının 2-də Bakı Slavyan Universitetinin rektoru vəzifəsindən azad edilərək Millətlərarası multikulturalizm və dini məsələlər üzrə dövlət müşaviri təyin edilən K.Abdullanın siyasi karyerasının çox az davam etməsi diqqət çəkir. Azərbaycanın tanınmış ziyalılarından olan K.Abdullanın nə rektor olanda, nə də yüksək vəzifəyə təyinatından sonra adı heç vaxt mənfi planda hallanmayıb. Bu baxımdan, K.Abdullanın postundan uzaqlaşdırılması bəzi iddiaların meydana gəlməsinə səbəb olub.

Qeyd edək ki, K.Abdulla özü könüllü olaraq vəzifəsini davam etdirmək istəməyib, yenidən təhsil sahəsinə qayıtmağa qərar verə də bilərdi.

Amma mənbəmiz onun işdən uzaqlaşdırılmasının "dini məsələlər"ə qarışması ilə bağlı olduğunu iddia edir. Qaynağımız yada salır ki, 2014-cü ildə yüksək vəzifəyə təyinat alan K.Abdulla dərhal ölkədəki dini adət-ənənələri, xüsusilə yas mərasimləri ilə bağlı məsələləri nizama salmaq üçün fəaliyyətə başlamışdı. Belə görünürdü ki, yas mərasimlərində israfçı ehsanın yığışdırılması hakimiyyətlə ən yuxarı səviyyədə razılaşdırıldıqdan sonra başlamışdı. Artıq 2014-cü ilin yayında hökumət yas mərasimlərində ehsan süfrələrinin qadağan edilməsi prosesini başladı və bununla bağlı bütün yerli hakimiyyət orqanlarına tapşırıqlar da verildi. Bu məsələdə dövlət müşaviri kimi K.Abdulla xeyli fəal idi və Mübariz Qurbanlının rəhbərlik etdiyi Dini İşlər üzrə Dövlət Komitəsi də bu düzənin yaradılmasına tərəf idi.

Amma hökumətin rəsmən başlatdığı ehsan qadağası faktiki olaraq işləmədi. Xüsusən də ölkənin az qala yarısının yerləşdiyi Bakı və Sumqayıtda ehsan qadağasına faktiki olaraq əməl edilmədi. Paytaxtın demək olar ki, bütün mərasim zallarında hökumətin qadağa qərarına zidd olaraq yeməkli ehsan mərasimləri təşkil olundu. Qadağaya qarşı çıxanlara isə Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə rəhbərlik edirdi. Təsadüfi deyil ki, QMİ-nin yerləşdiyi "Təzəpir" məscidindəki mərasim zalları, eləcə də şəhərin digər yerlərində fəaliyyət göstərən mərasim zalları bu qadağaya riayət etmədi, ehsan verməkdə davam etdi.

Bu narazılıq tezliklə mediada da özünü göstərməyə başladı. Şeyxin deputat qardaşı mediada "bəs digər məmurların restoran biznesi niyə qadağan edilmir" kimi ifadələrlə milyonların dövr etdiyi ehsan biznesini müdafiə etdi. QMİ isə bəyan etdi ki, idarə artıq 3 il əvvəldən xalqa müraciət edərək israfa yol verməməyə çağırıb, ancaq eyni zamanda bu məsələdə məcburiyyət yolverilməzdir. Beləliklə, aydın oldu ki, ölkənin əsas dini idarəsi, məscidlərə nəzarət edən qurum ehsan süfrələrinin məhdudlaşdırılmasının məcburi olmasına qarşıdır. Bundan sonra Mübariz Qurbanlı da müəyyən qədər geri çəkilərək, məcburi olaraq ehsan süfrəsinin qadağan edilməsinin doğru olmadığını, insanların bunu könüllü olaraq etməli olduğunu bəyan etdi.

Nəhayət, mediada belə xəbərlər dolaşmağa başladı ki, ehsan qadağası qərarı Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Kamal Abdullanın rəhbərlik etdiyi müşavirlik tərəfindən alınıb və Şeyxlə razılaşdırılmayıb. Hətta iddia olunurdu ki, ehsan qadağası ortaya çıxdıqdan sonra özünə qarşı ciddi təzyiqlərin başladığını hiss edən Şeyx dövlət başçısı ilə görüşüb və prezidentin bu məsələdə dəstəyini alıb. İddia olunurdu ki, ölkənin birinci şəxsi növbəti dəfə QMİ sədrini qoruyub. Mənbəmiz deyib ki, K.Abdullanın indi işdən uzaqlaşdırılmasında Şeyxlə olan konfliktinin də ciddi rolu olduğu güman edilir.

Qeyd edək ki, prezidentin millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər üzrə köməkçisi vəzifəsinə hələlik təyinat yoxdur.

❑ **"YM"**



Allahşükür Paşazadə



Kamal Abdulla

# Biznes adamı siyasətə gələndə...



Hüseynbala SƏLİMOV

**ABŞ-la Avropa arasında yaranmış ziddiyyətlər Frensis Fukuyama kimi politoloqu da danışmağa vadar etdi. Bəlkə də bunun özü daha bir böyük dönəmin müjdəsidir. Sosialist düşərgəsi çökmək ərəfəsində Fukuyama ona dünya şöhrəti gətirən "Tarixin sonu" məqaləsini yazmışdı. Sonradan sosialist düşərgəsi çökdü və bu yazı ayrıca əsərə çevrildi...**

Mən D.Trampın ABŞ-ın dünyadakı rolu ilə bağlı fikirləri haqqında çox yazmışdım. Amma əvvəl hamı güman edirdi ki, ABŞ prezidentinin ölkədə səsləndirdiyi fikirlər, sosial şəbəkələrdə bölüşdüyü məqamlar onun Avropa liderləri ilə birbaşa görüşündə yeni konturlar alacaqdır, Qoca və Yeni Dünya arasında anlaşma yaranacaqdır.

Amma heç buna oxşamır. Ziddiyyətlər dərinləşir, hətta Avropa özünün ilk müstəqil siyasətini qurmağa və kontinentə yeni siyasi lider çıxarmağa çalışır.

D.Tramp nə deyir? Bu adamın dediklərində müəyyən məntiq var. O, bəzi məsələlərdə ilk baxışda hətta haqlı da görünür. Artıq II Dünya müharibəsindən sonrakı dövr deyildir. Avropa ölkələri varlanıb, qüdrətli dövlətlərə çevriliblər. Ona görə də təhlükəsizliklə bağlı xərclərin mühüm hissəsini öz üzərlərinə götürməlidirlər.

Fəqət, dərindən baxanda görürsən ki, məsələ tək bunda da deyildir. Belə təsəvvür yaranır ki, son yarım əsrdə formalaşmış transkontinental geosiyasi arxitekturaya yenidən baxmağa cəhd edilir. Tramp biri-birinin ardınca ölkəsini qlobal əməkdaşlıq formatlarından çıxarır.

Elə ona görə də sual yaranır: doğrudanmı, son yarım əsrdə formalaşmış transkontinental geosiyasi arxitekturaya yenidən baxmaq zərurəti var?..

Bizə qalsa, düşünmürük ki, buna ehtiyac vardır. Xüsusən də Rusiyanın geosiyasi ambisiyalarının dirçəldiyi vaxtda belə zərurət bir qədər gülünc də görünür. Düzdür, bu yaxınlarda rusiyalı iqtisadçılar özləri çox maraqlı müqayisə aparmışdılar. Məlum olur ki, Rusiyanın bütün iqtisadiyyatı tək Kaliforniyanın iqtisadiyyatı qədər də deyildir!..

Ona görə də ilk baxışda ABŞ-ın Rusiya amilinə bir qədər yüngül formada yanaşması təbii görünür. O səbəbdən ki, təkcə hərbi büdcəsi Rusiyanın total büdcəsindən düz iki dəfə artıq olan ABŞ-ın Rusiyanı bir o qədər də dəyərləndirməməsi təbii deyilmi?..

Amma Rusiyanın nüvə başlıqları var və onların sayına görə bu ölkə dünyada ikinci yerdədir. Elə bu səbəbdən arxayınlaşmaq üçün elə bir ciddi motiv yoxdur. Bizə elə gəlir ki, Trampın siyasi davranışının özəlliyi həm də onun biznes adamı olması ilə bağlıdır. Biznes çox ciddi sahədir və bu sferanın adamları kifayət qədər ağıllı və tədbirli olur. Amma ki, bütün hallarda biznes siyasət deyildir. Siyasət tamam başqa bir sferadır. Elə bu səbəbdən də bəzi məqamlarda D.Tramp biznes adamı kimi haqlı görünsə də siyasət adamı kimi qətiyyən haqlı deyildir.

İndi qlobal geosiyasi formatların əsas maliyyə yükünü ABŞ-ın çəkməsində bir məntiq də vardır - bu ölkə dünya lideridir. Ona görə də onun özünü hətta Almaniya ilə bir cərgəyə qoyması olsa-olsa ironik gülüş doğura bilər - Almaniya nəinki dünyada, hətta NATO-da belə ABŞ deyildir...

Bu yaxınlarda vəfat etmiş Z.Bjezinski ABŞ-ın geostrateji hədəflərindən və missiyasından çox yazırdı. Bütün bunlar isə reallıqda bir politoloqun təxəyyülünün məhsulu deyildi, bir növ gerçəklikdi. Həm də burada bircə məqamı xüsusilə qeyd etmək istərdik. Qloballaşma təkcə hansısa böyük -transmilli şirkətlərin uydurması deyil, 21-ci əsrin labüd çağırışlarındandır və nəhəng dövlətlərin qlobal missiyaya can atması bir növ təbiidir.

Qərəz, Ağ Evdə biznes adamı oturubdur. Bu adam geosiyasi və siyasi liderliyin gətirdiyi iqtisadi dividentləri hesablamağı bacarmır. Elə buna görə də böyük səhvlərə yol verir. Bu səhvlər isə son əlli ildə dünyada bərqərar olmuş münasibətləri heç edə bilər.

Bəlkə də bizim ABŞ-ın öz liderliyini saxlamasını istəməyimiz bir qədər təəccüblü də görünə bilər. Amma H.Kissincerin təbirincə yanaşsaq, bu dünyada hələki böyük geosiyasi gücləri balanslaşdırmaqdan savayı bir yol görünmür. Bir daha deyirik ki, Rusiya yenə böyük geosiyasi ambisiya və planlarla yaşayır. Elə Almaniya da ən azı kontinental liderliyə iddialı görünür. Belə bir halda, ABŞ-ın öz "qınına çəkilməsi" nə qədər məqsədə və məntiqə uyğun olardı. Etiraf edin ki, bu elə də məntiqli görünmür və Trampın biznes təfəkkürü kiçik miqyaslarda nə qədər effektli görünsə də böyük siyasət baxımından gülüncdür...

YENİ MÜSAVAT
N 120 (6734) 6 iyun 2017

**Prezident İlham Əliyevin bir neçə gün öncə imzaladığı sərəncamla Prezident Administrasiyasında ciddi islahatlar aparıldı. Belə iddialar var ki, çoxdan gözlənilən ixtisarlara, struktur dəyişikliyinə başlamaqla bütövlükdə idarəçilikdə "ASAN" modelinə keçidin başlanğıcı qoyulub. Son illərdə bu modelin uğurlu nəticələrini alan hakimiyyətin idarəçilikdə də buna üstünlük verəcəyi deyilir. İstənilən halda islahatlara prezidentə ən yaxın qurumdan başlanılması ciddi proseslərin getdiyindən xəbər verir. Əksər ekspertlər "ASAN xidmət" modelinin idarəçiliyə də tətbiqinin ciddi effekti olacağını proqnozlaşdırır.**

# "Prezident Administrasiyasında aparılan bu islahatlar hələ son deyil"

## Fikrət Yusifov: "Ölkə prezidenti üçün toxunulmaz heç kim yoxdur"



**Sabiq maliyyə naziri, iqtisadçı alim Fikrət Yusifov** bildirir ki, kadr islahatları ümumi struktur islahatlarının tərkib hissəsidir: "Artıq iki ildən çoxdur ki, ölkədə struktur islahatlarına start verilib. Bu islahatların mərhələlərlə aparılması isə çox düzgün seçimdir. Bir qədər öncə mən mətbuat səhifələrində prezidentin təşəbbüsü ilə ölkədə aparılan struktur islahatlarının davamlı olacağına və getdikcə daha da dərinləşdiriləcəyinə dair fikirlər səsləndirmişdim. Dövlət başçısının son qərarları bir daha onu göstərdi ki, islahatların alternativi yoxdur və onlar bundan sonra da davam edəcəkdir. Aparılan struktur islahatlarının son məqsədi dövlət idarəçilik aparatının fəaliyyətinin səmərəliliyini maksimum təmin etməkdən ibarətdir. Bu gün ölkə iqtisadiyyatının əsasını təşkil edən və onun lokomotivinə çevrilməkdə olan azad sahibkarlığın qarşısında dayanan bütün problemlərin qısa zaman kəsiyində aradan qaldırılması iqtisadiyyatın sürətli inkişafına və onun şaxələndirilməsinə meydan açan yeganə düzgün yoldur. Bu səbəbdən də prezidentin atdığı bütün addımlar idarəçiliyin səmərəliliyini yüksəltməyi hədəfləyir. İdarəçilikdə "ASAN xidmət" modelinin seçilməsi və onun hərtərəfli inkişaf etdirilməsi də məhz bu ali məqsədi reallaşdırmağı nəzərdə tutur. İdarəçilikdə paralelçilik bir qayda olaraq ən adi məsələlərin həllində belə problemlər yaradır. Bu bir həqiqətdir. Elə bu səbəbdən də bir-birinin fəaliyyətini təkrar edən strukturların və ya ayrıca götürülmüş bir dövlət idarəetmə orqanında uyğun vəzifələrin ixtisar edilməsi tamamilə doğru addımdır. Prezident üsul-idarəsi olan bir ölkədə ölkə başçısına daxili və xarici siyasəti həyata keçirmək sahəsində çevik fəaliyyət göstərə bilən mobil bir komanda lazımdır. Çox yaxşı haldır ki, son bir il ərzində bu istiqamətdə kifayət qədər səmərəli addımlar atılıb. Vitse-prezident institutunun təsis edilməsi, kifayət qədər təşkilatçılıq bacarığı olan Mehriban xanımın birinci vitse-prezident vəzifəsinə təyin olunması, birinci vitse-prezident aparatının formalaşdırılması, eyni zamanda Prezident Administrasiyasında ciddi kadr dəyişiklikləri bütövlükdə idarəçilikdə çevikliyin maksimum təmin edilməsini hədəfləyir. İndiki dönəmdə isə bu çox mühüm bir məsələdir. Azərbaycan artıq bölgənin ən qüdrətli dövlətlərindən birinə çevrilib və indi ona ölkə iqtisadiyyatının daha sürətli inkişafını təmin etmək və regional əhəmiyyət kəsb edən nəhəng transmilli layihələri reallaşdırmaq üçün çevik dövlət idarəetmə aparatı formalaşdırmaq olduqca vacibdir".

**Sabiq nazir aparılan islahatların verəcəyi töhfələrdən də söz açdı:** "Heç şübhəsiz, aparılan islahatlar idarəçiliyin təkmilləşdirilməsi sahəsində qarşıya qoyulan vəzifələrin həllinə yaxşı töhfə verəcəkdir. Vəzifəsini itirmiş adamları isə "kadrların vurulması" kimi dəyərləndirməyin əleyhinəyəm. Çünki artıq hər kəs çoxdan yaxşı bilir ki, ölkə prezidenti üçün toxunulmaz heç kim yoxdur və o bunu dəfələrlə bəyan edib. Prezidentin bütün məsələlərdə olduğu kimi, kadr məsələlərində də nə qədər böyük qətiyyət sahibi olduğunu ölkəyə rəhbərlik etdiyi dövrdə biz dəfələrlə görmüşük. Bu səbəbdən də hansısa kadrı işdən uzaqlaşdırmaq xatirinə müəyyən bir qurumun və ya ayrıca götürülmüş bir vəzifənin ləğv edilməsinə ehtiyac yoxdur. Kimsə tutduğu vəzifədə ona edilmiş etimadı doğrultmayacaqsa, prezident onunla yolları ayıracaqdır. İslahatlar davamlı olacaq. Bundan sonrakı dönəmlərdə onların dərinləşdiriləcəyi heç şübhəsizdir. Ölkə konstitusiyasında edilmiş dəyişikliklərə uyğun aparılan bu islahatlar sonda mobil bir dövlət idarəetmə aparatının formalaşmasına gətirib çıxaracaq. Prezident köməkçiləri institutunun möhkəmləndirilməsinə gəldikdə isə bu, ölkə başçısının məsələlərə daha tez münasibət bildirməsinə və onların həlli ilə bağlı daha çevik qərarların qəbul edilməsinə şərait yaradacaqdır. Hesab edirəm ki, Prezident Administrasiyasında aparılan bu islahatlar hələ son deyil. Çox güman ki, islahatlar bundan sonra da məntiqi sonluğa qədər davam edəcəkdir. Bu islahatların sonrakı mərhələsinin isə Nazirlər Kabinetində, nazirlik, komitə və digər dövlət idarəetmə qurumlarında və yerli icra hakimiyyətlərində davam edəcəyi gözlənilir".

❑ **Cavanşir ABBASLI**

# Manat stabildir, qiymətlər isə bahalaşmaqda davam edir...



## Bəs səbəb nədir; ekspertlər maraqlı faktlar açıqlayır

**Uzun müddətdir ki, manatın məzənnəsində sabitlik müşahidə olunur. Bəzi ekspertlər bu sabitliyin müvəqqəti olduğunu bildirsələr də, hökumət manatın ilin sonuna qədər ucuzlaşmayacağı anonsunu verib. Lakin bütün bunların əksinə olaraq mağazalarda gündəlik tələbat mallarının bahalaşması davam edir. Son zamanlar bəzi təmizlik vasitələri, yuyucu tozlar, o cümlədən sənaye istehsalı olan ərzaq məhsulları, yağlar, ağartı məhsulları və sairin qiymətində artım müşahidə edilir.**

Bəs bu ziddiyyətli durumun səbəbi nədir? Vətəndaşlar bazarlarda ucuzlaşma gözlədiyi bir vaxtda yaşanan bahalaşmanın iqtisadi baxımdan əsası varmı? Yoxsa bu, sahibkarların qiymət siyasəti ilə bağlı sabotajıdır?

"Yeni Müsavat"a açıqlamasında durumu şərh edən **iqtisadçı ekspert Rəşad Həsənov** bildirdi ki, burada söhbət heç bir halda sabotajdan getmir: "Səbəb odur ki, Azərbaycan bazarları manatın devalvasiyasından sonrakı situasiyanı tam qiymətləndirə bilməyib. Çünki manat iki il ərzində 54 faiz dəyər itirib. Ancaq məhsulların qiymətlərində bu qədər artım baş verməди. Yerli istehsal məhsullarının da bir hissəsi xammal baxımından idxaldan asılıdır. Bu sahədə də qiymətlərin artmasına ehtiyac var idi. Amma faktiki olaraq əhalinin alıcılığının kəskin azalması biznes subyektlərini bu imkandan məhrum etmişdi. Eyni zamanda ilk olaraq dövlət qurumları müəyyən inzibati yollarla bu prosesə müqavimət göstərirdi. Ancaq bu da əsas amil deyildi. Əsas məsələ əhalinin alıcılıq qabiliyyətinin aşağı olması idi ki, bu da qiymətlərin artmasının qarşısını alırdı. Baxmayaraq ki, ötən iki ildə inflyasiya iki rəqəmli idi və bu il də ikirəqəmli səviyyədədir. Hələ bazarlar qiymətləndirməni başa çatdırmayıblar".

**İqtisadçının fikrincə, səbəblərdən biri də manatla bağlı müəyyən şübhələrin olmasıdır:** "Amma faktiki olaraq ərzaq və gündəlik tələbat malları bazarında daha çox qısamüddətli strategiyalar əhəmiyyət daşıyır. Şirkətlər daha qısamüddətli qiymət siyasəti həyata keçirməyə üstünlük verirlər. Bu gün dolların məzənnəsinin aşağı olması onlara imkan verir ki, qiymətləri ucuzlaşdırsınlar. Çünki anbarlarda olan məhsullar artıq satılıb. Şirkətlər yeni məhsullar idxal etməlidirlər. Bu imkan yaradır ki, sahibkarlar qiymətləri aşağı çəkə bilsinlər. Ancaq indi yaranan imkanlar ötənilki ziyanları kompensasiya etmir. Şirkətlərin böyük bir qismi ötən iki ili zərərlə başa vurublar. Belə olan şəraitdə şirkətlər üçün digər bir imkan yaranıb. Belə ki, dolların davamlı olaraq bahalaşdığı dövrdə insanlar istehlakı məhdudlaşdırmışdılar. Gözləyirdir ki, valyuta daha da bahalaşsın, əllərindəki yığımlar artsın. Belə olan təqdirdə xərcləmələrin səviyyəsi dövrü olaraq aşağı düşür. Hazırda isə məzənnədə stabillik var, o da bazarların müəyyən qədər canlanmasına gətirib çıxarır. Bu canlanma da istehlakın artmasına səbəb olur, şirkətlər üçün şərait yaradır ki, qiymətlərdə korrektələr etsinlər. Bu gün bizim müşahidə etdiyimiz də buna bənzər bir situasiyanın nəticəsidir".

**R.Həsənov mövsümi amilləri də istisna etmədi:** "Bəzi məhsullar da var ki, mövsümdən asılı olaraq onların qiymətlərində dəyişikliklər baş verir. Sonradan bahalaşma ucuzlaşma ilə, ucuzlaşma isə bahalaşma ilə əvəz olunur. Bunlar da hazırda bazarda müşahidə edilir. Bəzi kənd təsərrüfatı məhsullarının yığım mövsümünün başlamaması, eyni zamanda ötən ildən qalan məhsulların da azalması qiymətlərin bahalaşmasını şərtləndirən amillərdən biridir.

Bazarda südün və ağartı məhsullarının da qıtlığı müşahidə olunur. O baxımdan bir çox süd məhsullarının, o cümlədən yağın qiymətində artım baş verib. Bu da son nəticədə istehlak qiymətlərinin artmasına gətirib çıxarıb. Yəni ən müxtəlif səbəblərdən bazarda fərqli dinamika müşahidə edilir".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 120 (6734) 6 iyun 2017

**Son zamanlar Azərbaycanda "5-ci kolon"un fəallaşması ilə bağlı məsələlər geniş müzakirə obyektinə çevrilib. Hamıya məlumdur ki, üç il öncədən başlayaraq, bəzi QHT rəhbərləri, siyasətçilər səviyyəsində şəxslərin həbsi ilə Qərbə yaxın olan qüvvələr tamamilə sıradan çıxarıldı. Amma bundan fərqli olaraq, Rusiyaya yaxın olan "5-ci kolon" üzvlərinə təzyiqlər olmur, hətta onlar yüksək postlarda təmsil olunurlar.**

# "Hakimiyyət daxilində Rusiyanın "5-ci kolon"unu müdafiə edənlər var"

## İqbal Ağazadə: "Onlar ictimai kampaniya təşkil etsələr ki, Avrasiya İttifaqına daxil olaq, Rusiya bunu dərhal dəstəkləyəcək"

Siyasi şərhçilər hesab edirlər ki, Rusiya bizim üçün daha təhlükəli dövlət olduğundan Azərbaycandakı "5-ci kolon"la bağlı ehtiyatlı siyasət yürüdülür və bunu da haradasa başa düşmək olar.

**Ümid Partiyasının sədri İqbal Ağazadə qərbmeylli "5-ci kolon" anlayışını qəbul etmir:** "Meyllilik dəyər seçimidir, "5-ci kolon" anlayışı deyil. Məsələn, bu gün "5-ci ci kolon" üzvü dedikləriniz desələr ki, Azərbaycanı Avropa Birliyinin üzvü edək, yaxud birliklə güzəştli şərtlərlə müqavilələr imzalayaq, o zaman qarşımıza dəyərlərlə bağlı şərtlər qoyulacaq, yəni bizi Avropa Birliyinə almayacaqlar. Azərbaycanda həqiqətən Rusiyanın "5-ci kolon"u var. Onlar ictimai kampaniya təşkil etsələr ki, Avrasiya İttifaqına daxil olaq, Rusiya bunu dərhal dəstəkləyəcək. Onların fərqi bundadır. Biri dəyərlər, digəri Rusiyanın hegemonluğu, regionda qalması uğrunda mübarizə aparır. Təəssüf ki, dəyərlər uğrunda mübarizə aparanları hökumət sıxışdırır, amma Azərbaycanın suverenliyinə qəsd etməyə hər an hazır olanların qarşısında susur. Buna Rusiya ilə münasibətləri kəskinləşdirməmək adını verirlər. Rusiyanın "5-ci kolon"una bu qədər şərait yaratmaq, hətta onlara hökumət daxilindən dəstək verilməsi müstəqilliyimizin gələcəyi üçün xoş heç nə vəd etmir. Rusiya "5-ci kolon"u etnik zəmində, eləcə də Dağlıq Qarabağla bağlı məsələlərdə istifadə edir. Daxildəki sabitliyi pozmaq üçün də bundan yararlanır. Bu sualların cavabı daha çox hakimiyyət nümayəndələrinə ünvanlanmalıdır ki, nədən bu tipli məsələlərdə hər zaman susqunluğa yol verirlər. Başa düşürəm, Rusiyanın pəncəsi ağır ola bilər. Lakin "5-ci kolon" üzvlərinin fəaliyyətinə elə bir qadağa qoyulmalıdır ki, əl-qol aça bilməsinlər. Amma bunların olmaması onu deməyə əsas verir ki, hakimiyyət daxilində Rusiyanın "5-ci kolon"unu müdafiə edən, onlara dəstək verən yüksək çinli məmurlar var".



**Politoloq Elçin Mirzəbəyli bu cür şəxslərin dövlət maraqlarına zidd fəaliyyət göstərdiklərini qeyd etdi:** ""5-ci kolon"un rus, yaxud qərbyönümlü olmasının heç bir fərqi yoxdur. Hər ikisi Azərbaycanın maraqlarına zidd fəaliyyət göstərir, ölkənin "immun sistemini" məhv etməyə, müqavimət gücünü sıradan çıxartmağa çalışırlar. Digər tərəfdən, təkcə qərbmeyilli "5-ci kolon"un sıradan çıxarıldığını düşünmürəm. Milli Şura yaradılanda biz qərbyönümlülərin necə qısa bir zaman ərzində rusyönümlü olduqlarının, hətta Rusiya prezidentini dünyada "demokratiya və hüququn aliliyinin təminatçısı" kimi vəsf edərək ona müraciət ünvanladıqlarının da şahidi olduq. Hesab edirəm ki, son zamanlar Gürcüstan üzərindən ötürülən vəsaitləri Azərbaycana daşıyanların hesabına təkcə dollar və avro deyil, həm də rus rublunun köçürüldüyü də nəzərdən qaçırılmamalıdır. Başqa bir nümunə gətirim: TAP layihəsinə və təbii ki Azərbaycanın maraqlarına qarşı ən amansız mübarizə aparan qüvvələrdən biri İtaliya parlamentində 20 faiz yerlə təmsil olunan "Five star" (Beş ulduz) blokudur. "No TAP" kampaniyası da məhz bu blok tərəfindən maliyyələşdirilir. İtaliya mətbuatı bu blokun Rusiyadan, "Qazprom" şirkətindən ciddi maliyyə dəstəyi aldığını sübuta yetirən təkzibolunmaz faktlar ortaya qoyub. Göründüyü kimi, görüntüdə "Five star" Qərb təşkilatıdır, amma reallıqda Rusiyanın maraqlarını ifadə edir. Belə nümunələrin sayını artırmaq da olar. Rusiyameyilli qüvvələr hər yerdə var, o cümlədən mətbuatda da... Unutmaq lazım deyil ki, biz 70 il Rusiya ilə eyni çətirin altında yaşamışıq, daha doğrusu, sosializmin qırmızı rənginə boyadılmış rus çətirinin altında. O çətirin altında özünü daha rahat hiss edənlər, istiqlalın dəyərini anlamayan, müstəqilliyin mahiyyətini başa düşməyənlər kifayət qədərdir. Amma ölkənin ali siyasi rəhbərliyi Azərbaycanın müstəqilliyinin qorunması istiqamətində əzmkar mövqeyini hər zaman açıq şəkildə sərgiləyib və bundan sonra da belə olacaq. Azərbaycan xalqının da cüzi istisnalar olmaq şərtilə, müstəqil Azərbaycan dövlətçiliyinin yanında olduğuna əminəm. O ki qaldı imperiyanın tör-töküntülərinə, onlar ölkəmizi inkişafa aparan, müstəqil dövlətçiliyimizi daha da möhkəmləndirən qərarların icrasını, islahatların həyata keçirilməsini bacardıqları qədər ləngitməyə, milli intellektual qüvvələrin yolunu kəsməyə cəhd göstərə bilərlər, amma buna nail ola bilməzlər. Müstəqilliyimizin yenidən bərpa olunmasından 25 ildən artıq zaman keçir. İndi ayaq üstə güclü, qürurlu, xarakterli Azərbaycan var. .

❑ **Cavanşir ABBASLI**

# Müxalifətin yay planları...



## "Son illərin ən qızmar siyasi aylarını yaşayacağıq"

**Azərbaycanda seçki ilinin olmaması siyasi səhnədə durğunluğu bir qədər artırıb. Siyasət meydanı sanki boş qalıb. Bir zamanlar müxalifət partiyalarının şərti olaraq yaz, yay, payız, qış planları olurdu. İndi belə planların olub-olmadığını araşdırdıq. Müxalifət partiyalarının durğun yay ayları üçün görəcəyi işlər varmı?**

**VİP sədri Əli Əliyev** bildirdi ki, onun ehtimalına görə, bu yay aylarında durğunluq olmayacaq. Hakimiyyət yay mövsümünün passivliyindən yararlanmağa çalışacaq. Belə ki, referendum zamanı planlaşdırılan işlərin görülməsi zərurəti qalmaqdadır: "Məqsəd hakimiyyət daxilində dəyişikliklərə nail olmaqdır. Bunun üçün yay elə ən münasib mövsümdür. Hesab edirəm ki, başlanmış yerdəyişmə, təyinat və struktur dəyişikliyi prosesləri davam edəcək. Məqsəd prosesi gündəlik mənzilə qovuşdurmaqdır. İstisna olunmur ki, məhz durğun olacağı öncəgörülən yayda növbədənkənar prezident seçkiləri də keçirilsin. Bunun ehtimalını yüksək qiymətləndirirəm. Belə plan işə salınsa, son illərin ən qızmar siyasi aylarını yaşayacağıq. Çünki həm daxili, həm də xarici maneə mexanizmləri işə salınacaq. Əlbəttə ki, bu, siyasi proqnozdur. Seçki olmasa belə, siyasi qaynarlıq üçün digər faktorlar yetərlidir. Ümumən, yayın hərarətinin yüksək olacağını ehtimal edirəm. Həyata keçirilmiş son həbslər, tətbiq olunan qadağalar nəyə isə hazırlığın əlaməti ola bilər. Belə olarsa, müxalifət də hazırlaşmalı, yarana biləcək istənilən hala adekvat olmağı bacarmalıdır".

**AĞ Partiyanın sədri Tural Abbaslı isə bildirdi ki, bir zamanlar müxalifət bəzi planlar qururdu, ancaq təəssüf olsun ki, uzun illərin yanlış siyasəti nəticəsində bir çox partiyalar nəinki plan qurur, hətta yaşam savaşı verir:** "AĞ Partiya olaraq biz yay aylarında istirahətə çəkilmək niyyətində deyilik. Hər həftə partiyanın İdarə Heyətinin toplantılarını keçiririk və qarşıda duran məsələlərin həlli istiqamətində iş bölgüsü, fikir mübadiləsi, müzakirələr aparılır. Həmçinin hakimiyyətdaxili baş verən prosesləri analiz edirik və buna uyğun addımları müzakirə edirik. Yayda da bu olduğu kimi davam edəcək. Həmçinin ən əsası, yeni yaranmış partiya olaraq təşkilatlanmaya xüsusi yer və önəm ayırırıq. Hər iclasın əsas mövzularından biri də bu olur. Yəqin ki, siyasi cəhətdən passiv olan yay aylarında da əsas istiqamətlərimizdən biri bu olacaq. Çalışacağıq ki, sentyabra daha təşkilatlanmış və güclü şəkildə girək. Ümumən isə inkişaf tempimizdən razıyam. Əminəm ki, insanlar AĞ Partiyanın ideoloji xətti ilə tanış olduqca və hədəf və məqsədlərimiz barədə məlumatlandıqca, bizə tərəf yön dəyişəcəklər".

**Ümid Partiyasının sədr müavini Tamilla Qulami bildirdi ki, partiyanın 2017-2018-ci il yol xəritəsi planına uyğun olaraq təşkilatlanma davam etdiriləcək:** "Qarşımızda olan 3 yay ayı boyunca və gələn aylarda da rayon təşkilatlarımız konfranslar, regional müşavirələr keçirəcək".

**AMİP katibi Elşən Mustafayev də dedi ki, yay ayları üçün görüləcək işlər var:** "Ümumiyyətlə, bütün partiyalar, təşkilatlar, müxtəlif qurumlar normalda illik iş planı ilə fəaliyyət göstərməlidirlər. Kim buna nə şəkildə əməl edir, deyə bilmərəm. Amma bizdə hər il üçün maksimum imkanlar nəzərə alınmaqla iş planı tərtib olunur və il ərzində kiçik korrektələrlə bu plana uyğun fəaliyyət göstərilir. Əgər seçkilər və ya ölkəmiqyaslı böyük siyasi tədbirlər yoxdursa, hər hansı hadisə baş verməyibsə, adətən yay ayları durğun və aktiv olmayan fəaliyyətlə müşahidə olunur. Bu vaxtlar daha çox regionlarda olan təşkilatlarımızla işlər görülür. Bu il AMİP-in yaranmasının 25 illik yubileyidir. Bu vaxt iyul ayına təsadüf etdiyi üçün yay boyunca yubiley tədbirlərimizin olacağı gözlənilir".

**ADP sədrinin müavini Taliyət Əliyev qeyd etdi ki, yay aylarında ölkədə elə bir siyasi kampaniya və ya seçkilər olmadığından müxalifətin, o cümlədən ADP-nin hansısa proqram həyata keçirməsinə ehtiyac yoxdur:** "Yay mövsümündə cəmiyyətin əksər sahələrində, o cümlədən siyasi həyatda da həmişə süstlük olub. Bu baxımdan, hansısa istisnalar olmasa, qarşıdakı yay aylarında da ölkənin siyasi həyatı mövsüm üçün xarakterik olacaq".

**Vətəndaş Həmrəyliyi Partiyasının Mərkəzi İcra Aparatının rəhbəri Samir Əsədli isə bildirdi ki, yay ayları üçün əsas rayon təşkilatlarında hesabat-seçki konfransları keçirilməsi olacaq:** "Bir sıra rayon təşkilatlarımızın konfransları keçirilib, bəziləri hələ qalıb. Xüsusən də Bakı təşkilatları qalıb. Yay aylarında konfransları keçirib başa çatdırmaq nəzərdə tutulub. VHP-nin bu il payızda 25 ili tamam olur. 25 illiklə bağlı tədbirlərimiz olacaq. İlin sonuna kimi partiyanın qurultayının keçirilməsi də nəzərdə tutulur".

❑ **Etibar SEYİDAĞA**

# Bəyə dedim, a bəy...

Zamin HACI
zaminhaci@gmail.com

**İyun ayı 1993-cü ildən bəri tariximizə qara günlərin yazıldığı bir ay kimi düşüb. 4 iyunda Surət Hüseynovun, köhnə kommunistlərin, Etibar Məmmədov, Araz Əlizadə, Nemət Pənahlı kimilərinin ittifaqı yapistlərlə birləşib AXC hakimiyyətini yıxdılar. Sonra Qarabağ və ətrafı işğal edildi, demokratiyaya nöqtə qoyuldu. Daha sonrasını özünüz bilirsiniz. Daha doğrusu, bu girdabın içində birgə yaşamaqdayıq və sonu görünmür.**

Həmin qiyam yada salınarkən adətən tərəflər iki yerə bölünür. Bir tərəf Elçibəy hakimiyyətini bacarıqsız olmaqda suçlayır, qiyamın qarşısını ala bilməməyə görə qınayır, hətta daha uzağa gedib bunun bir gizli təhvil-təslim aktı olduğunu iddia edirlər. Başqa tərəf isə Elçibəyin sülhpərvər insan olduğunu, qardaş qanı axıtmaq, vətəndaş savaşı çıxartmamaq istədiyini deyir. Kim haqlıdır? Məncə, bu, yetərincə mürəkkəb sualdır, həddindən artıq şərtlərə, özəlliklərə diqqət etmədən buna primitiv "Cəbhəçilər bizi pis günə qoydu", yaxud "Elçibəy peyğəmbər kimi adam idi" şəklində baxmaq olmaz. Ümid edirəm, bizim tarixçi alimlər haçansa bu məsələni mümkün qədər obyektiv şəkildə analiz edib yazacaqlar. Ancaq indilik də ortada xeyli maraqlı kitablar var.

Misal üçün, Elçibəyin ömrünün sonlarında mətbuat katibi olmuş, AXC hakimiyyəti dövründə isə təhsil nazirinin müavini işləmiş Ədalət Tahirzadənin 1999-cu ildə yazdığı "Elçibəylə 13 saat üz-üzə" kitabının 67-ci səhifəsində bu qiyamı yatırtmaq sualına Elçibəy xeyli dərəcədə aydınlıq gətirib. Sitat: "Milli Təhlükəsizlik, Müdafiə, Daxili İşlər nazirlikləri kimi güc qurumları hakimiyyətə etibarlı olmalıdır. 4 iyun ərəfəsində isə bizim bu qurumlarda etibarlı kadrlarımız çox az idi. Bu kadrlar cəmi 1 il ərzində yaradıla bilməzdi, bizə bunun üçün azı 3-4 il vaxt lazım idi. Naziri, baş prokuroru dəyişməklə köklü dəyişiklik olmur. Orta pilləni dəyişməlisən, biz buna başlamışdıq, ancaq onlar da bunu görüb əleyhimizə çevrildilər".

Doğrudan da, əslində Elçibəy qiyamı yatırtmaq, dövlət əleyhinə çıxan qüvvələri tərk-silah etmək üçün əmr vermişdi, özü də bunu hətta cin lampadan çıxandan sonra - Surətin dəstələri Gəncə zonasını tərk edib Bakıya gələndə Nəvai-Hacıqabul ərazisində bir daha təkrarlamışdı. Ancaq ordu rəhbərliyi, başda sünnət toyu generalı Dadaş Rzayev olmaqla - əmrə tabe olmamışdı. O vaxtkı Azərbaycanda indi demaqoqların dediyi kimi, "bacarıqlı, köhnə kadr" adlanan başqa neçə general tapmaq olardı ki? Dadaş Rzayev SSRİ-də desant-hava qüvvələri briqadasına komandirlik eləmişdi. Ancaq bu adam nədənsə Surətin başıpozuq dəstələri qarşısından dovşan kimi qaçmışdı.

Nə var idisə bu idi! Elə danışırlar, sanki Elçibəyin tabeliyində onlarla suvorovlar, kutuzovlar, nə bilim, ənvər paşalar varmış, ancaq istifadə eləməyib. Sözgəlişi, bu demaqoqların tərif vurduğu hazırkı generallardan biri 1992-ci ildə rusların Altay dairəsində hərbi komissarlıqda işləyirdi. Belə patriot oğlan idisə, vətənin ağır günlərində niyə gəlmirdi?

Danışmaq, zəvzəmək yaxşı şeydir. Hələ heç kim zəvzəməkdən ölməyib. Yara da almırsan. Ancaq gəlin baxaq görək biz Elçibəydən, onun hakimiyyətindən umduğumuz hərəkətlərin nə qədərini özümüz eləmişik? Şuşa işğal edilən-də orda üst-üstə neçə nəfər əsgərimiz olub, bilirsinizmi? Rəsmi ştat cədvəlinə görə bir neçə batalyonun birlikdə 1000 nəfərə yaxın əsgəri guya Şuşanı qoruyurdu. Ancaq bunların çoxu məzuniyyət götürüb ev-eşiyinə getmişdi, qalanların sayı isə bir çox şahidlərin ifadəsinə görə, 300-400 əsgərdən çox olmayıb. 1992-ci ildə Azərbaycanın hardasa 7 milyon əhalisi vardı. 7 milyon özünün inci kimi şəhərini qorumağa cəmi 300-400 nəfər, lap rəsmi siyahıya görə 1000 nəfər göndərirsə, günahı bəlkə orda-burda axtarmayaq? Ermənilər isə Şuşaya 1800-2000 nəfərlik qüvvə ilə hücum etmişdilər - məlumat üçün...

Ordu elə, polisə rəhbərlik edən isə təmiz adam olsa da çılğınlığı ilə hər gün problem yaradırdı. Məhkəməyə başçılıq edən kommunistlərlə ittifaq qurmuşdu, üstəlik, islahat aparmağa qadir olmayan, şivən qoparmaq ustası idi. Başqa hakim də yox idi yerinə qoyasan - qalanları bundan betər idi. Lap o məsəldəki kimi: ağıllınız kimdir, qabaqda gedən zəncirli... Deputatxananın yarısı partokrat idi. Yeri gəlmişkən, Elçibəyin 1 illik hakimiyyətinin düz 6 ayında baş nazir elə "peşəkar", "köhnə kadr", "işbilən" Rəhim Hüseynov olmuşdu. Ancaq Elçibəyin sıravi cəbhəçilərdən təyin elədiyi adi rayon icra hakimiyyəti başçıları öz fəaliyyətləri və uğurları ilə bu baş nazirdən daha çox yadda qalmışdılar.

# 3 ölkə xüsusi təyinatlılarının ortaq təlimini labüd edən şərt




# "Qafqaz qartalı" təlimlərində əsas hədəf: "Qarabağda müharibə başlasa..."

Bakı-Tiflis-Qars dəmir yolunun işə düşməsi ərəfəsində situasiya qəlizləşir; yeni hərbi əməliyyatlar qızışacağı halda NATO-nun simpatiyası Azərbaycana olacaq - iddia; **erməni politoloq:** "Rusiya axıradək arxamızda durmayacaq, müharibə olsa, məğlub olacağıq..."

**Gürcüstanın paytaxtı Tiflisin yaxınlığında Türkiyə, Azərbaycan və Gürcüstan silahlı qüvvələrinin ortaq hərbi təlimləri başlayıb. İyunun 4-dən start götürən və ayın 14-dək davam edəcək "Qafqaz qartalı" adlı təlimlərə üç ölkənin xüsusi təyinatlı qüvvələri cəlb olunub.**

Bu, üç tərəfdaş ölkə arasında sayca üçüncü belə ortaq hərbi manevrlərdir. Əsas hədəf - qarşılıqlı hərbi təcrübə mübadiləsi və qoşunların uzlaşma şəraitində mümkün fəaliyyəti, tərəfdaş dövlətlərin milli təhlükəsizliyini möhkəmlətmək, o sırada bölgədən keçən strateji neft-qaz kəmərləri və nəqliyyat xətlərinin təhlükəsizliyini gücləndirməkdir. Hazırkı təlimlərdə xüsusi təyinatlıların iştirakı bu xüsusda böyük önəm kəsb edir.

*****

Yeri gəlmişkən, artıq Bakı-Tiflis-Qars dəmir yolu da demək olar, hazır vəziyyətdədir və tezliklə işə düşəcək - hansı dəmir yolu ki, işğalçı Ermənistanın dünyadan iqtisadi-kommunikasiya təcridini bir az da gücləndirəcək və Azərbaycan, Gürcüstan və Türkiyənin büdcələrinə əlavə sanballı gəlirlər gətirəcək. Eyni zamanda Ermənistanın müttəfiqi Rusiya üçün yeni dəmir yolu onun tranzit ölkə kimi önəmi azaltmış olacaq.

Təsadüfi deyil ki, ABŞ-ın erməni lobbisi hələ illər öncə bu layihəni əngəlləmək və dayandırmaq üçün hərəkətə keçmiş, hətta ABŞ Konqresinə kimi gedib çıxmışdı. Lakin cəhdlər alınmadı, Azərbaycan bu meqa-layihənin maliyyələşməsində əsas yükü öz üzərinə götürdü.

Eləcə də bölgənin Rusiyadan tranzit asılılığını azalmasına işləyəcək bu layihədən Moskvanın da məmnun qalmadığı dəqiqdir. O üzdən bölgədə Şərqdən Qərbə, üzü Avropaya gedən bu yeni nəqliyyat arteriyasına və mövcud strateji enerji xətlərinə (Bakı-Tiflis-Ceyhan, Bakı-Tiflis-Ərzurum, tikilməkdə olan Cənub Qaz Dəhlizinə) qarşı təxribatların artacağı istisna edilmir.

Söz düşmüşkən, erməni generalları dəfələrlə haqqında danışılan kəmərləri və Mingəçevir SES-i bombalamaqla bağlı təxribatçı bəyanatlar veriblər. Gürcüstandakı ortaq hərbi təlimlərin bir mühüm önəmi sözsüz ki, ən əvvəl bununla bağlıdır.

*****

Xatırladaq ki, bu təlimlərdən bir qədər əvvəl - may ayında qardaş ölkə ilə Azərbaycan ölkəmizin ərazisində birgə hərbi təlimlər keçirmişdi. Bu kimi təlimlərin mühüm bir özəlliyi də elə NATO üzvü Türkiyənin onun aparıcı ölkə olmasındadır. Bu, o deməkdir ki, sabah münaqişəli vəziyyətlərdə, o sırada Qarabağ ətrafında hərbi əməliyyatlar başlarsa, belə bir təcrübə ciddi şəkildə köməyə gələ bilər.

Qarabağda müharibə ehtimalı isə heç vaxt olmadığı qədər böyük hesab edilir. Son olaraq ABŞ Mili Kəşfiyyat Agentliyi və Beynəlxalq Böhran Qrupu, habelə rusiyalı hərbi ekspert Pavel Felqenqauer bu barədə xəbərdarlıq ediblər. İşğalçı Ermənistanın ekspert dairələrində də bir müharibə xofu yaşanır.

*****

**"Qərbdə düşünürlər ki, Qarabağda müharibə olmayacaq, lakin reallıqda Azərbaycan ərazilərin azad olunması üçün güc yolunu əsas variant kimi saxlayır və ordunu bu istiqamətdə kökləyir". Bu barədə erməni politoloq İqor Muradyan deyib (publika.az). Onun sözlərinə görə, Ermənistan rəhbərliyi müharibənin təhlükəsini anlamır.**

**"Siyasi rəhbərlik ümidlərini Rusiyaya və Moskvanın verdiyi silahlara bağlayıb. Bununla belə, orduda yüksək rütbəli zabitlər arasında Rusiyanın müharibədə erməniləri satacağı haqda müzakirələr gedir. Rusiya Azərbaycana silah satır, lakin İrəvan buna baxmayaraq, rusların dediyi ilə oturub-durur. Buna görə də beynəlxalq səhnədə də heç bir tərəfdaş tapa bilməmişik" - Muradyan deyib.**

**Erməni politoloq qeyd edib ki, Ermənistan güclü şəkildə Rusiyadan asılıdır.** "Buna görə də müharibədə Qərb, xüsusilə də NATO heç bir dəstək verməyəcək. Qərbdə hesab edirlər ki, Rusiya Ermənistanın müttəfiqidir, buna görə də lazımi dəstək verəcək. Lakin reallıqda bu, belə deyil. Azərbaycan da bunu yaxşı anlayır və Ermənistana vuracağı zərbəyə Moskvanın səs çıxarmayacağını bilir", - deyə o bildirib.

Erməni analitikə görə, müharibədə NATO Azərbaycana dəstək verə bilər: "Çünki Bakı İrəvandan fərqli olaraq, NATO ilə sıx əməkdaşlıq üçün qapısını daim açıq saxlayır. Bununla yanaşı, ən yaxın müttəfiqi olan Türkiyə NATO üzvüdür, həmçinin Şimal Alyansının diqqət göstərdiyi Gürcüstanla sıx əlaqələri var. Bütün bunlar Bakının İrəvan üzərindəki üstünlükləridir. Əgər müharibə olacaqsa, Ermənistan açıq şəkildə məğlub olacaq. Bunun səbəbi isə indiyə qədər erməni rəhbərliyinin Rusiyaya bel bağlayaraq, Qərbdən üz döndərməsidir". Erməni politoloq Qarabağda yaxın dövrlərdə ən azı lokal müharibənin baş verəcəyini hesab edir.

*****

Əslində həm lokal, həm də böyük müharibədən nə qədər gec deyil, qaçmaq mümkündür. Yetər ki, işğalçı ölkə öz işğalçı statusunu etiraf edib, ilkin mərhələdə Azərbaycan ərazilərinin heç olmasa, bir qismini boşaltsın - qeyd-şərtsiz. Dəfələrə vurğuladığımız kimi, erməni xalqı sülh istəyəcəksə - sülhü, müharibə arzulayacaqsa - müharibəni alacaq. Seçim onundur.

❑ **Siyasət şöbəsi**

YENİ MÜSAVAT
N 120 (6734) 6 iyun 2017

# Ağ Ev Cənubi Qafqazı Rusiyaya təhvil verir?

## Elxan Şahinoğlu: "Tramp istəsə belə, regionu Rusiyaya "peşkəş" edə bilməz..."

**Son zamanlar ABŞ-ın Cənubi Qafqazda mövqelərinin getdikcə zəiflədiyi və regionu yavaş-yavaş Rusiyaya təhvil verdiyi barədə səslənən fikirlər artmaqdadır. Xüsusilə ABŞ-ın yeni rəhbəri Donald Trampın gəlişindən və onun digər dövlətlərin daxili işlərinə qarışmayacağı ilə bağlı dediklərindən sonra belə düşüncədə olanlar çoxalıb.**



Regionla bağlı gedən proseslər bölgə dövlətlərindən biri kimi, Azərbaycanı da ciddi narahat etməkdədir. Əksər ekspertlər bu qənaətdədir ki, Amerikanın bölgədən geri çəkilməsi Rusiyanın əl-qolunu açar, Kremlin imperiya hərisliyini artırar və nəticədə region dövlətlərinin gələcəyi təhlükə altına düşər. Əslinə qalsa, Azərbaycanın sabiq xarici işlər naziri Tofiq Zülfüqarov ötən ay qəzetimizə verdiyi geniş müsahibədə bu məsələyə toxunmuş, Birləşmiş Ştatların getdikcə mövqelərini Cənubi Qafqazda Rusiyaya təhvil verdiyini vurğulamışdı.

Doğrudur, ABŞ kimi qlobal supergücün Cənubi Qafqazı dünyadakı əsas rəqibinə heç zaman təhvil verməyəcəyi ilə bağlı fikirlər də kifayət qədər çoxdur. Belə olarsa, bunun Tramp hakimiyyətinin sonu olacağı və o üzdən də Ağ Ev sahibinin heç zaman bu riski gözə almayacağı bildirilir. Kimin Amerikada hakimiyyətdə olmasından asılı olmayaraq, Cənubi Qafqazın rəsmi Vaşinqtonun dövlət siyasətinin əsaslarından birini təşkil etdiyi qeyd edilir.

**Politoloq Elxan Şahinoğlu hesab edir ki, Cənubi Qafqaz nə Rusiyanın, nə də Amerikanındır:** "Cənubi Qafqazın 3 ölkəsindən, sadəcə, Ermənistan Rusiyanın vassalıdır. Gürcüstan və Azərbaycan isə müstəqil siyasət yürüdürlər. Biri Avropa İttifaqı və NATO-ya üzv olmaq istəyir, digəri müxtəlif qütblərlə bərabərhüquqlu münasibətlərin qurulmasına çalışır. Tramp istəsə belə, Cənubi Qafqazı Rusiyaya "peşkəş" edə bilməz. Azərbaycan Rusiyadan yan keçən böyük enerji və nəqliyyat layihələrinin açar dövlətidir. Bu layihələri isə həm ABŞ, həm də Avropa İttifaqı dəstəkləyir. Ona görə hesab etmirəm ki, Vaşinqton və Brüssel Azərbaycandan Rusiyanın xeyrinə imtina edəcək. Bu, Amerikanın və Avropanın öz maraqlarından imtina etməsi demək olar. Çünki gərək enerji və nəqliyyat layihələrindən də imtina edələr. Bu isə baş verməyəcək. O ki qaldı Trampın başqa ölkələrin daxili işlərinə qarışmayacağı bəyanatına, əksinə, bu açıqlama ABŞ-Azərbaycan münasibətlərinə təkan verə bilər. Çünki bu açıqlamanı başda prezident İlham Əliyev olmaqla, digər rəsmilərimiz yüksək qiymətləndirib. Amerika Azərbaycanın daxili işlərinə qarışanda bu, Kremlin işinə yarayırdı, çünki rəsmi Bakı Vaşinqtondan uzaqlaşaraq Moskvaya yaxınlaşırdı. İndi isə buna ehtiyac yoxdur. Rəsmi Bakı Vaşinqtonla münasibətlərdə yeni səhifə açmaq istəyir. Ancaq bunun şərtləri var. Birincisi, Donald Tramp Administrasiyası hakimiyyətdə olduğu 4 ildə prezident İlham Əliyevi Vaşinqtona rəsmi səfərə dəvət etməlidir. İkincisi, Vaşinqton həmsədr olaraq Qarabağ münaqişəsinin həllinə maraq göstərməlidir. Üçüncüsü, Vaşinqton əvvəlki tək Azərbaycanın iştirakçısı olduğu regional enerji və nəqliyyat layihələrinə dəstək verməlidir. Əlbəttə, bu halda Vaşinqtonun də Bakıdan istəkləri ola bilər. Əgər Ağ Ev Bakının istəklərini nəzərə alacaqsa, Bakı da Ağ Evin istəklərini nəzərə almaq məcburiyyətindədir. Bir şərtlə ki, Amerika-Azərbaycan münasibətləri üçüncü dövlətlərə qarşı yönəlməsin".

**Politoloq Rusiyanın prosesləri daim narahatlıqla qarşıladığını da qeyd etdi:** "Rusiya ABŞ-ın, NATO-nun və Avropa İttifaqının Cənubi Qafqaza marağını hər zaman narahatlıqla qarşılayır. Ancaq Rusiya buna qarşı hansı siyasət ortaya qoyur? Gürcüstanı parçalamaqla və ya Ermənistana hərbi dəstək verməklə Cənubi Qafqazda möhkəmlənmək olmaz. Hətta Ermənistan əhalisinin simpatiyası Qərbin tərəfindədir. Sadəcə, Rusiyadan asılı olduqlarından istəklərini açıq dilə gətirmirlər. Cənubi Qafqazın birləşməsinə mane olan səbəb Azərbaycan torpaqlarının işğal altında olmasıdır. Münaqişə ədalətli həll olunarsa, Ermənistanın Azərbaycan-Gürcüstan ittifaqına qoşulması şansı artıracaq. Bu, Ermənistanın özünün də xeyrinədir. Hadisələrin bu istiqamətdə inkişafı isə Kremlin maraqlarına uyğun deyil. Ona görə də Dağlıq Qarabağ probleminin həllini sürətləndirmək istəmirlər. Münaqişənin həlli Cənubi Qafqazın Amerika və Avropa İttifaqı ilə münasibətlərini keyfiyyətcə yeni mərhələyə çıxara bilər".

❑ **Cavanşir ABBASLI**



### "Azərbaycan-ABŞ münasibətlərində yeni səhifənin açılması üçün böyük imkan var"

**"Beynəlxalq aləmdə böyük gərginliyin olmasına baxmayaraq, biz düşünürük Azərbaycan-ABŞ münasibətlərində yeni səhifənin açılması üçün böyük imkan var".**

APA-nın məlumatına görə, bunu Azərbaycan prezidentinin xarici siyasət məsələləri üzrə köməkçisi-şöbə müdiri Novruz Məmmədov deyib.

N. Məmmədov bildirib ki, bunun ən mühüm sübutlarından biri kimi Donald Trampın Azərbaycan prezidentinə son iki həftədə iki məktubunu göstərmək olar.

"Bu məktublarda münasibətlərdə yeni səhifənin açılması üçün nə qədər imkanların olduğu görünür", - deyə o qeyd edib.

Bir müddət əvvəl Ər-Riyad şəhərində Ərəb-İslam-Amerika zirvəsinin keçirildiyini xatırladan N. Məmmədov ABŞ prezidentinin zirvədə mühüm nitq söylədiyini bildirib: "O, çıxışında bundan sonra ABŞ-ın dünya ölkələri ilə əməkdaşlıq prinsiplərini ortaya qoydu. Biz bu prinsipləri bəyənirik. Neçə illərdir deyirik ki, münasibətlərdə bu prinsiplər əsas götürülməlidir. Bu prinsiplərə əməl edilsəydi, bugünkü gərginlik də olmazdı, ölkələr arasında dostluq, əməkdaşlıq, tərəfdaşlıq əlaqələri daha uğurla davam edərdi. Düşünürəm ki, belə bir perspektiv var, biz də bu perspektivlərlə bağlı lazımi addımlar atırıq".

# Rusiyanın "tanınma nişanı" - Putin



Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Rusiya telekanallarında siyasi təhlil verilişlərini izləyəndə bir şeyə əminlik hasil edirsən: bu ölkədə ictimai-siyasi şüur hələ uzun müddət velikorus virusuna yoluxmuş qalacaq və bunun da altını təkcə qonşu xalqlar, dünya xalqları deyil, rus cəmiyyəti də çəkməkdə davam edəcək.**

Bir qənaət də belədir ki, rus toplumu öz liderinə - İvan Qroznının hazırkı davamçısı Vladimir Putinə layiqdir. "Hər xalq öz rəhbərinə babdır" məşhur kəlamı sanki məhz elə ruslar üçün deyilib. Bu, bir gerçəkdir ki, ruslar tarix boyu yaxşı yaşaya, rifaha qovuşa bilməyiblər - əvəzində yeni-yeni ərazi işğalları ilə "doyuzdurulub"lar, buna bir növ vərdişkar edilibər.

Putin Rusiyasının toplumu da adam kimi güzəran sürmür - ilk növbədə də Avropa toplumları ilə, Qərb toplumları ilə müqayisədə. Halbuki, nəhəng əraziyə malik Rusiya neft-qazdan tutmuş qızıl-almaza, urana qədər az qala, Mendeleyev cədvəlinin bütün elementləri ilə zəngindir. Avropa bu gün də xeyli dərəcədə Rusiya təbii qazından asılıdır. Ancaq paradoksdur ki, Rusiya qazına möhtac olan avropalılar zəngin sərvətləri olan ruslarla müqayisədə qat-qat yaxşı yaşayırlar. Niyə görə?

Çünki həmin sərvətlər əslində rus xalqının deyil. Ona görə ruslar pis yaşayır ki, bir dövlətin ən qiymətli sərvəti onun zəngin karbohidrogen, qızıl yataqları yox, azad insanıdır. Avropalılar azaddır, ruslar isə SSRİ dağılsa da, 17 ildir Putin rejiminin girovluğundadır. Nəticə göz deşir: Avropa rus qazından, Rusiyanın inkişafı isə Qərbin qabaqcıl texnologiyalarından asılıdır. Yəni intellekt məsələsi.

Sözsüz ki, intellektsiz millət olmur. Lakin intellekti reallaşdırmağın əsas şərti fərdin azadlığıdır. Bu isə Rusiyada yoxdur. Çünki Rusiyada yalnız bircə nəfər azaddır - əlahəzrət Putin. Bu xüsusda tanınmış rus yazıçılarından birinin II dünya savaşından az sonra Qərbi Almaniyada olarkən etdiyi bir müqayisə çox ibrətamizdir. O demişdi ki, "Necə olur ki, müharibəni udan bizlər, amma almanlar yaxşı yaşayır?"

Ruslar əsrlərdir aktual olan bu sualın cavabını hələ də tapa bilməyiblər. O üzdən acınacaqlı gündə yaşayırlar. Ruslar indiyədək də anlaya bilmirlər ki, hərbi zəfərlər, istila və işğallar, nəhəng ərazi, qiymətli təbii qaynaqlar rifahda yaşamağa zəmanət vermir. Əsas öz insanına azadlıq vermək, onun əlindəki buxovu açmaq, insana özünütəsdiq üçün şərait qurmaqdır.

Yoxsa ki, Rusiyanın ərazisini Krım və Sevastopol hesabına böyütməklə də sadə rusların güzəranı zərrəcə yaxşıya dəyişmədi, əksinə pisləşməkdədir. İnsan isə bir dəfə yaşayır və o üzdən hər kəs ona ayrılmış ömrü keyfiyyətli, insana layiq başa vurmaq istəyir. Bu, həm də onun doğal haqqıdır və bu haqq uğrunda rus toplumunun da mübarizə aparmaq hüququ var.

Amma ruslar Putinlə qane olurmuş kimi görünürlər. Bu mənada Putini hazırda rus toplumunun "brendi" ("tanınma nişanı") da saymaq olar. Lakin bu brend yalançıdır. Ona görə ki, daha çox pafosun, mifik qürurun, dünyaya yumruq silkələmənin rəmzidir. Güclü toplum isə azad və təmin olunmuş, çoxluğun iradəsi və rəyi ilə idarə olunan toplumdur.

"Bu, rusların bəyəndiyi Vladimir Putin idi". Belə bir maraqlı müşahidəni ötən həftə Putindən müsahibə götürən NBS telekanalının aparıcısı Meqan Kelli deyib. Onun sözlərinə görə, Putin şəxsi söhbət zamanı və kamera qarşısında özünü fərqli aparan birisidir. Sitat: "Çəkilişdən öncə Putin olduqca səmimi idi. O özünü rahat aparırdı. Ailəm haqqında soruşdu. Həmçinin öz ailəsi barədə danışdı. Lakin kadrlarda hamımızın tanıdığı Rusiya prezidenti olur. O, gərgin vəziyyət alır, güzəştə getmir, özünü iddialı və emosional aparırdı. Əksər hallarda hücuma keçirdi. O, rusların bəyəndiyi Vladimir Putin idi".

Qeyri-səmimilik, yalan, riyakarlıq, dost-müttəfiqə yuxarıdan aşağı baxmaq və ona sədaqətsizlik... Əslində bu kimi xüsusiyyətlər bütün rus liderlərinə xas olub. Nə qədər ki, Rusiya rəhbərlərində başqa ölkələrə və xalqlara münasibətdə sadalanan keyfiyyətlər aparıcı olacaq, o vaxta qədər də Rusiyaya heç kim nə inanacaq, nə də etibar edəcək. Necə ki, heç kim inanmır, etibar eləmir.

Təsadüfi deyil ki, Rusiya dünyada yeganə (imperialist) dövlətdir ki, öz qonşularının (Ukrayna, Moldova, Gürcüstan, Azərbaycan) ərazilərini işğal edib və hələ üstəlik, bu ilhaqı israrla beynəlxalq hüquqla əsaslandırmağa çalışır. İşğalçı olduğunu israrla danır...

Doğrudan da bu, həmin, köhnə Rusiyadır - öz layiqli brendi Putinlə birgə...

YENİ MÜSAVAT
N 120 (6734) 6 iyun 2017

Ötən həftə Bakı Media Mərkəzinin inzibati binasının rəsmi açılış mərasimi olub. Mərasimdə Bakı Media Mərkəzinin prezidenti Arzu Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak ediblər. Azərbaycanın media sahəsində yeni və innovativ şirkəti olan Bakı Media Mərkəzi 2013-cü ildən fəaliyyət göstərir. Şirkət ötən müddətdə istər dövlət qurumlarının, istərsə də ayrı-ayrı təşkilatların sifarişi üzrə ən müasir texnologiyalar əsasında çoxsaylı audio-videomateriallar hazırlayaraq təqdim edib, müxtəlif videoçarxlar hazırlayıb, tanınmış yayım şirkətlərinə materiallar ötürüb, Azərbaycanın gözəlliklərinin fotosalnaməsini yaradıb.

# Cənubi Qafqazın ən böyük media mərkəzi Azərbaycanda

## Bakı Media Mərkəzinin binasının açılışında iştirak edən baş redaktorlardan açıqlamalar





Məlumat verilib ki, bu qurumun inzibati binasının istifadəyə verilməsi ilə Bakı Media Mərkəzi fəaliyyətini daha da genişləndirəcək və təkmilləşdirəcək. Açılış mərasiminə toplaşan qonaqları salamlayan Bakı Media Mərkəzinin prezidenti Arzu Əliyeva dörd ildir fəaliyyət göstərən bu qurumun uğurlu irimiqyaslı layihələr həyata keçirdiyini bildirib.

İnformasiyanın ötürülməsində sosial medianın və internet resurslarının artan rolundan danışan Bakı Media Mərkəzinin direktoru Orman Əliyev bu qurumun Arzu Əliyevanın rəhbərliyi ilə ötən dörd il ərzində bir sıra maraqlı və yaddaşlarda qalan beynəlxalq miqyaslı layihələr həyata keçirdiyini qeyd etdi. O vurğuladı ki, Bakı Media Mərkəzində peşəkar komanda formalaşıb və onlar ən müasir avadanlıqlarla təmin ediliblər.

Bir sıra beynəlxalq müsabiqələrin mükafatlarına layiq görülən Bakı Media Mərkəzi Heydər Əliyev Fondunun sifarişi ilə maraqlı sənədli filmləri də tamaşaçıların ixtiyarına verib.

Orijinal üslubda inşa edilən Bakı Media Mərkəzinin binası iki il ərzində ərsəyə gəlib. Binada avadanlıqların nümayiş olunduğu və saxlanıldığı bazalar, foto və videoçəkiliş pavilyonları, işıq avadanlığı üçün xüsusi anbarlar yaradılıb. Mərkəzin montaj otaqları, səsyazma studiyaları və arxivi də müasir texnoloji avadanlıqla təmin edilib. Bakı Media Mərkəzinin həyətindəki qapalı depo xüsusi çəkiliş maşınları və avadanlıqları üçün nəzərdə tutulub.

Qeyd edək ki, binanın açılış mərasiminə Aynur Camalqızı və modern.az saytının baş redaktoru Elşad Eyvazlı da dəvətlilər sırasında olub. Hər baş redaktor "Yeni Müsavat"a təəssüratlarını bölüşüb.

**"Teleqraf Media Qrupu"nun rəhbəri Aynur Camalqızı bildirdi ki, Bakı Media Mərkəzi ölkəmizin media sahəsində yeni və innovativ bir qurumdur:** "Yanılmıramsa, artıq 4 ildir ki, fəaliyyətdədir. Bu şirkət az müddət ərzində həm ayrı-ayrı dövlət qurumlarının, həm qeyri-dövlət təşkilatlarının sifarişi ilə ən yüksək standartlara cavab verən çoxsaylı audio-videomateriallar hazırlayıb. Bir neçə sənədli film çəkilib: "Əbədi ezamiyyət" və "Hədəf Bakıdır. Hitler neft uğrunda döyüşü necə uduzdu". Həmin filmlər beynəlxalq müsabiqələrin mükafatını alıb. Peşəkarların əməyi ilə müxtəlif tanıtım videoçarxları hazırlanıb. Həmin əsərlər dünyaca məşhur yayım şirkətlərində yayımlanıb, Azərbaycanın gözəlliklərinin fotosalnaməsi yaradılıb. Bütün bunlar Azərbaycanın dünyaya təqdim olunması, tanıdılması baxımından çox önəmlidir. Mən tədbirdə öyrəndim ki, Bakı Media Mərkəzi 1-ci Avropa Oyunlarının, Bədii Gimnastika üzrə 30-cu Avropa çempionatının, Formula-1 yarışlarının, "Tour d'Azerbaidjan" turnirlərinin, IV İslam Həmrəyliyi Oyunlarının çəkiliş və yayımında yetərincə təcrübəli Avropa şirkətləri ilə birlikdə işləyib və açığı, belə bir maddi-texniki təchizatı, peşəkar kollektivi olan media qurumunun Azərbaycanda olmasına, beynəlxalq layihələrdə iştirakına çox sevindim. Amma maraqlıdır ki, bu şirkət öz fəaliyyətini heç vaxt qabartmayıb, "mən də varam, biz də varıq" ideyası gördüyünüz kimi, yoxdur, olmayıb. Mən o açılış mərasimində bunun çox sadə səbəbini anladım: bu, ona görədir ki, Bakı Media Mərkəzinə Arzu xanım Əliyeva rəhbərlik edir. Biz prezidentimizin övladlarını təmənnasız, ölkə üçün gördüyü böyük işlərə görə minnətdarlıq ummayan, hər zaman öz yüksək mədəniyyəti və həddən ziyadə sadə davranışları, vətənpərvərlikləri ilə tanıyırıq. Bu təbii ki, həm genetik kodlarla, həm də ailədə qazandıqları yüksək mənəvi keyfiyyətlərlə bağlıdır və başqa cür ola da bilməzdi".

**A.Camalqızı əlavə edib ki, sözügedən qurumun inzibati binasının istifadəyə verilməsi Bakı Media Mərkəzinin fəaliyyətini daha da genişləndirməyə xidmət edir:** "Bu, həm də mədəniyyətimizə töhfədir. Bakı Media Mərkəzinin binasının foyesində qoyulan "Dream" əsərini, sadəcə, görmək lazımdır. Bu əsər güclü ruhu olan qadın obrazını canlandırır. Daş plastikası üslulu ilə yaradılan əsərdə qədimlik, tarixilik və müasirlik vəhdət təşkil edir. Müəllifi rəssam Rəşad Mehdiyevdir. Mən binanın özünü də zərif, zövqlə inşa olunmuş, yüksək səviyyəli memarlıq nüməsi sayıram. Öncə düşündüm ki, yəqin bu binanın memarı əcnəbidir. Çünki son illər bir sıra böyük memarlıq layihələri məhz əcnəbi mütəxəssislərin rəhbərliyi ilə araya-ərsəyə gəlib. Məsələn, dünya memarlıq inciləri ilə bir sırada dayanan Heydər Əliyev Mərkəzinin binası kimi. Bilirsiz ki, müəllifi Zaha Hadid idi. Sevindirici haldır ki, bu binanın memarı azərbaycanlıdır".

**A.Camalqızı qeyd edib ki, açılış mərasimində jurnalistlər say etibarilə kifayət qədər idi:** "Amma onların əksəriyyəti televiziya əməkdaşları, rəhbərləri, tanınmış aparıcılar idi. Onlayın, print mediadan yalnız mən və Elşad Eyvazlı təmsil olunurduq".

**Modern.az saytının baş redaktoru Elşad Eyvazlı isə bildirdi ki, Bakı Media Mərkəzi Cənubi Qafqazda media ilə bağlı ən böyük, ən müasir texnologiyalarla təchiz olunmuş layihədir. Bu mərkəzin texniki imkanları o dərəcədə yüksəkdir ki, Avropanın öndə gedən dövlətlərindəki media layihələri ilə müqayisə oluna bilər. Ən yüksək səviyyədə filmlərin çəkilişi üçün lazım olan texniki avadanlıqlar Bakı Media Mərkəzindədir:** "Bina azərbaycanlı memar tərəfindən işlənib. Binaya nəzər yetirdikdə görürsən ki, burada həm müasirlik, həm klassiklik əksini tapıb. Kadr məsələsinə gəldikdə, orada çalışanların əksəriyyəti azərbaycanlılardır. Professional komanda qurulub. Əminəm ki, bu cür yüksək potensial Bakı Media Mərkəzinin Azərbaycan mediasının daxildə və xaricdə inkişafına nail olacağına imkan yaradacaq. Azərbaycanda keçirilən böyük beynəlxalq mədəni, humanitar tədbirlərin, idman yarışlarının professional şəkildə dünyaya təqdim olunmasında Bakı Media Mərkəzinin çox böyük rolu var. Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında da Bakı Media Mərkəzi mühüm işlər görüb və şübhəsiz ki, bu fəaliyyət daha da genişlənəcək. Bu mərkəzin imkanlarından media təmsilçiləri yararlanmaq imkanına da malikdirlər. Hər kəs mərkəzin təcrübəsindən yararlana bilər".

❑ Etibar SEYİDAĞA

# Ürəyi dayanan nazir niyə yerli səhiyyəyə etibar etmədi?



## Səfayə Əhmədova: "Natiq Əliyev xəstəxanaya ürəyi dayanmış vəziyyətdə gətirilib, bu durumdan çıxarılıb"

**Energetika naziri Natiq Əliyevin qəfildən ürəyində problemlər yaranması, xəstəxanaya düşməsi xəbəri yayılıb. Məlumata görə, nazir təcili Mərkəzi Neftçilər Xəstəxanasına yerləşdirilib, süni masajla yenidən həyata qaytarılıb. Nazirin ilk günlərdə yerli xəstəxanada müalicə alması böyük marağa səbəb oldu. Belə ki, adətən məmurlar yerli səhiyyəyə etibar etməyərək, daha çox xarici ölkələrdə müalicə almağı üstün tuturlar. İlk dəfə nazirin yerli xəstəxanada müalicə alması ictimaiyyət üçün təbii ki, gözlənilməz idi. Lakin qısa zaman ərzində məlum oldu ki, nazir müalicəsini davam etdirmək üçün Türkiyəyə aparılıb.**

> **"Nazirin ailəsinin şəxsi istəyidir ki, Natiq Əliyev bundan sonra müalicəsini Türkiyədə davam etdirsin; bu nə Səhiyyə Nazirliyinin, nə də xəstəxananın günahı deyil"**

### 70 yaşlı nazirin bioqrafiyası

Qeyd edək ki, 70 yaşlı nazir Natiq Əliyevin bu günə qədər hər hansı bir xəstəlikdən əziyyət çəkməsi məlum olmayıb. Nazirin qısaca olaraq bioqrafiyası haqda məlumat verərək bildirək Natiq Ağaəmi oğlu Əliyev 1947-ci ildə Bakı şəhərində anadan olub. 1970-ci ildə Azərbaycan Neft və Kimya İnstitutunu bitirib. Geologiya-mineralogiya elmləri namizədidir. İlk əmək fəaliyyətinə "Xəzərdənizneftqazsənaye" istehsalat birliyində başlayıb. 1992-ci ildə "İpesko" Şirkətinin Bakı nümayəndəliyinin baş direktoru vəzifəsinə təyin edilib. ARDNŞ geofiziki və geoloji işlərlə, kəşfiyyat, qazma, neft və qazın hasilatı və nəqli, tikinti, neft və qaz emalı, elmi-layihə fəaliyyəti, maşınqayırma, xarici iqtisadi fəaliyyətlə məşğul olub. 1993-2005-ci illərdə isə ARDNŞ İdarə Heyətinin prezidenti və sədri vəzifəsində çalışıb. 1993-cü ildən AR Dövlət Neft Şirkətinin (ARDNŞ) prezidenti olub. Neft sənayesinin inkişafında göstərdiyi xidmətlərə görə Azərbaycan Respublikası Şöhrət Ordeninə layiq görülüb...

### Məmurlar niyə yerli səhiyyəyə etibar etmir?

Nazir Natiq Əliyevin Bakıdakı xəstəxanada cəmi bir gün qalıb, digər həmkarları kimi müalicə almaq üçün Türkiyəyə üz tutması rezonans doğurub. Oxşar hal bir neçə ay öncə digər məmurun nümunəsində də baş vermişdi; baş nazir müavini Abid Şərifov ürəyində yaranmış problemlərlə əlaqədar olaraq Bakı xəstəxanalarının birinə yerləşdirilsə də sonradan müalicə üçün İsrailə üz tutmuşdu. Eləcə də sabiq nazir Ziya Məmmədovun da 2015-ci ildə İsveçrədə, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun Türkiyədə müalicə aldığı artıq hər kəsə məlumdur. Bu siyahıda daha bir neçə məmurun adını qeyd etmək olar. Bütün bunlar onu göstərir ki, azərbaycanlı məmurlar müalicə almaq üçün daha çox Türkiyə, Almaniya, Rusiya, İsrail, Amerikaya üz tutur. Hətta bir çox məmurlar dərmanları belə Azərbaycandan deyil, xaricdən alırlar. Maraqlıdır, niyə məmurlarımız yerli səhiyyəyə etibar etmirlər? Səhiyyəmiz kifayət qədər yararlı deyil, yoxsa?

**Səhiyyə Nazirliyinin mətbuat xidmətinin əməkdaşı Səfayə Əhmədova məsələyə bu cür aydınlıq gətirdi:** "Hər bir ailənin öz şəxsi istəyidir ki, harada müalicə alır. Amma siz bilirsiz ki, Natiq Əliyev çox ağır vəziyyətdə, ürəyi dayanmış vəziyyətdə gəlib Neftçilər Xəstəxanasına. Və onu həmin xəstəxananın əməkdaşları ağır vəziyyətdən çıxara biliblər. Nazirin ailəsinin şəxsi istəyidir ki, Natiq Əliyev bundan sonra müalicəsini Türkiyədə davam etsin. Bu nə Səhiyyə Nazirliyinin, nə də xəstəxananın günahı deyil. Əsas odur ki, hər şey yaxşı olsun. Ölkəmizdə də çox yaxşı mütəxəssislər var. Buna görə bir-iki faktı "bayraq" etmək doğru deyil. Ümumiyyətlə, ötən illərlə müqayisədə xarici ölkələrə müalicə almağa gedən vətəndaşların sayı dəfələrlə azalıb. Həm də xaricdən ölkəyə gətirilən mütəxəssislərin sayı azalıb. Ölkəmizdə müxtəlif ağır əməliyyatlar keçirilir".

❑ Xalidə GƏRAY

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 120 (6734) 6 iyun 2017



# Kremldən ərazi bütövlüyümüzə qarşı "pasport tələsi"

## Rusiyanın milli azlıqları "rus pasportu" ilə təmin etmək planının arxasındakı təhdidlər; Dağlıq Qarabağ erməniləri Moskvanın yeni layihəsində rol ala bilərmi? **Politoloq:** "Bu şantajdan çəkinsək, torpaqlarımızın geri qaytarılması çətinləşəcək"

**Rusiyanın Azərbaycana qarşı təzyiq siyasətinin arxasında Avrasiya planları ilə yanaşı, Qarabağ təslimçiliyini qəbul etdirmək niyyətinin də olması çoxlarına məlumdur. Moskva xüsusilə də ötən ilin aprel döyüşlərində forpostu Ermənistanın işğalçı ordusunun burnunun ovulmasını sinirə bilmədiyindən bölgədəki situasiyanı tam şəkildə ələ almaq üçün çeşidli planlar işə salıb.**




Faktiki olaraq Dağlıq Qarabağın "müstəqilliyi"nə aparan, şərti adı "Lavrov planı" olan təkliflərin Bakı tərəfindən qəbulolunmazlığını anlayandan sonra Rusiya işğalçını yeni silahlarla təchiz etmək siyasətini daha da sürətləndirmək qərarını verdi. Rusiyanın Azərbaycana gerçək münasibətini nümayiş etdirən təkcə "İsgəndər" raket-komplekslərinin Ermənistana verilməsi, yaxud azərbaycanlıların ən böyük diaspor təşkilatı olan Ümumrusiya Azərbaycanlıları Konqresinin ləğvi kimi faktlar deyil. May ayında Azərbaycan ordusu işğalçı ordunun Qarabağdakı "OSA" qurğusunu məhv edəndə Moskvanın aşkar etirazını da gördük.

Şimal qonşumuz açıq bəyan etməsə də, dolayısı ilə Azərbaycana qarşı təzyiqlərini davam etdirir. Bugünlərdə isə ölkəmizin təhlükəsizliyini təhdid edən növbəti addımların atılması barədə xəbərlər yayılıb ki, artıq "Yeni Müsavat" bu məsələni geniş şəkildə ictimailəşdirib. Söhbət Moskvada kürdlərə, ləzgilərə, talışlara, abxazlara, osetinlərə Rusiya pasportu paylanmasından bəhs edən materialdan gedir. Sözügedən layihədə Kremlin SSRİ-nin bərpası ideyasını yeni variantda gündəmə gətirməsi də diqqət çəkir. Əməkdaşımızın da müşahidələrindən belə aydın olur ki, Avrasiya Xalqlarının İ qurultayı Kremlin qonşuluq siyasətinə heç bir korrektə etmədiyini, üstəlik, postsovet məkanında separatizmin əsas dəstəkçisi rolunu davam etdirdiyini bir daha üzə çıxarıb. O da məlum olub ki, Moskva son aylarda yuxarıda adıçəkilən xalqların təmsilçilərinə kütləvi şəkildə Rusiya pasportları paylayır.

Bizi daha çox narahat edən isə əlbəttə ki, Qarabağın taleyidir. De-fakto itirilmiş torpaqlarımızın de-yure mənimsənilməsi istiqamətində cəhdlər hələ ki Bakının prinsipiallığı sayəsində mümkün olmayıb. Ancaq vaxtaşırı Rusiyanın Qarabağ ermənilərinə də rus pasportları paylaya biləcəyi haqda narahatlıqlar gündəmə gəlir. Düzdür, Rusiya açıq şəkildə hətta prezident Putin tərəfindən bölgədə rolu yüksək qiymətləndirilən Azərbaycana qarşı bu kimi addımlar atmaqdan çəkinir. Ancaq Rusiyanın Qarabağ separatçılarına vaxtaşırı öz ərazisində meydan verməsi də hər kəsə məlumdur.

Ancaq təhlükə təkcə bununla bitmir. Pasport məsələsindən görünən budur ki, Rusiya 1993-cü ildə ortaya atdığı "talış kartı" və ya "ləzgi kartı"nı yenə də dövriyyəyə buraxmağa çalışır. Şübhə etmirik ki, bu planlar növbəti dəfə iflasa uğrayacaq. Çünki zaman-zaman Azərbaycanda yaşayan millətlərin təmsilçilərindən ərazi bütövlüyümüzə qarşı istifadə cəhdləri olub, ancaq son nəticədə sağlam düşüncə qalib gəlib. Düzdür, elə bu il Talış Mədəniyyət Mərkəzi İdarə Heyətinin üzvü Şahin Mirzəyev ölkəmizə xəyanət edərək Ermənistana sığındı. Ancaq belə istisnalar hər zaman hər yerdə olur, bu mənada bir fakta görə hansısa etnik qrupu ittiham etmək yolverilməzdir. Elə talışların özü, hətta atası Ş.Mirzəyevi lənətlədi. Qarabağ döyüşlərində, həmçinin Azərbaycanın müstəqilliyi uğrunda mübarizədə talışlar, ləzgilər də digər millətlərin nümayəndələri ilə birlikdə fədakarlıq göstəriblər, şəhidlər veriblər, sağlamlıqlarını itiriblər. Amma mümkündür ki, Rusiya öz ərazisində yaşayan Azərbaycan vətəndaşlığı daşıyan etniklərin təmsilçilərinə hansısa məqsədlər üçün vətəndaşlıq versin və onlardan Azərbaycan ərazisindəki planlarını reallaşdırmaq üçün istifadə etmək istəsin. Düzdür, Azərbaycanda ikili vətəndaşlıq qanunla qadağandır. Bununla belə, hesab olunur ki, istənilən halda şimaldan gələn təhlükələri gözardına almaq olmaz, məsələyə daim həssas münasibət göstərilməsinə ehtiyac var.

**Politoloq Elçin Mirzəbəyli "Yeni Müsavat"a bildirdi ki, postsovet respublikalarının ərazisindəki ayrı-ayrı etnik qrupların təmsilçilərinə Rusiya pasportlarının paylanılması Moskvanın ənənəvi siyasətidir:** "Kreml bu vasitə ilə pasport payladığı şəxsləri özünün nüfuz müvəkkillərinə çevirir və ehtiyac duyulduqda onları hərəkətə gətirir, guya "vətəndaşlarının hüquqlarının pozulduğu" barədə rəy formalaşdırır və təzyiq mexanizmlərini işə salır. Azərbaycan bu prosesin hüquqi müstəvidə qarşısını çoxdan alıb. Ölkəmizdə ikili vətəndaşlıq qadağandır. Başqa ölkənin vətəndaşlığını qəbul edən və bu barədə Azərbaycanın müvafiq qurumlarına məlumat verməyən şəxslər isə cinayət məsuliyyətinə cəlb oluna bilərlər. Hesab edirəm ki, qanundan irəli gələn hüquqi mexanizmlər işə salınmalı, qanunvericiliyi pozan şəxslər cinayət məsuliyyətinə cəlb olunmalıdır ki, başqalarına da dərs olsun. Bundan başqa, düşünürəm ki, başqa ölkənin vətəndaşlığını qəbul edən şəxslərin mülkiyyət hüquqları ilə bağlı məsələlərə də yenidən baxılmalıdır. Məsələn, onların torpaq üzərindəki mülkiyyət hüquqları ləğv olunmalıdır. Dünyanın bir çox ölkələrində xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə torpaq üzərində mülkiyyət hüququ verilmir".

**E.Mirzəbəyli Rusiyanın işğal altında olan Azərbaycan torpaqlarındakı ermənilərə pasport paylayacağını düşünmür:** "Əgər Rusiya belə bir addım atarsa, o zaman münaqişə tərəfi olduğunu daha açıq şəkildə ortaya qoyacaq və erməni separatizmi və işğalı avtomatik olaraq, erməni-rus separatizmi və Ermənistan-Rusiya işğalı adını, yəni əsil adını alacaq. Rusiyanın təzyiqlərinin hansısa qlobal geosiyasi maraqlardan qaynaqlandığını düşünmürəm. Müşahidələrimə əsasən deyə bilərəm ki, belə təzyiqlər çox zaman iqtisadi və korporativ maraqlardan qaynaqlanır".

"Rusiya Qarabağ ermənilərinə pasport paylamaq qərarını versə, bu, Kremlin avtomatik Azərbaycanla münasibətlərinin gərginləşməsinə yol açacaq. Kremlin hələ ki Azərbaycanla münasibətlərinin təhlükə altına atacağını düşünmürəm. Sadəcə, Moskvada bu cür ssenarilərin yazıldığını da istisna etmirəm". **Bu fikirlər isə "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğluna məxsusdur. Ekspert qəzetimizə açıqlamasında xatırlatdı ki, son aylar Moskvada Azərbaycan əleyhinə addımların sayı artıb:** "Doğrudur, rusiyalı rəsmilər öz açıqlamaları ilə münasibətlərin yüksək səviyyədə olduğunu deməklə ortamı yumşaltmağa çalışdılar. Ancaq münasibətlərdəki reallıq fərqlidir. ÜAK-ın qeydiyyatı ləğv olunub, erməni separatçıları "bayraqlarını" Moskvadakı yürüşlərdə dalğalandırırlar, üstəgəl, erməni hərbçiləri deyirlər ki, Rusiya-Ermənistan hərbi birləşmələri Dağlıq Qarabağda Azərbaycan ordusuna qarşı savaşa bilər və s. Qarabağda ermənilərə Rusiya pasportlarının paylanmasına gəldikdə isə bu, Rusiyaya baha başa gələ bilər. Rusiya Gürcüstanı və Ukraynanı itirib, Azərbaycanı itirmək isə Rusiya ilə sıx münasibətləri olan türkdilli dövlətləri də ciddi düşünməyə vadar edəcək. Sadəcə, Rusiyada bəzi mərkəzləri bizi belə şantaj etmək istəyirlər ki, "baxın ha, Dağlıq Qarabağ və ətraf rayonları azad etmək istəsəniz, biz Dağlıq Qarabağdakı ermənilərə Rusiya pasportları verəcəyik". Bu, bizi torpaqlarımızı istənilən yolla azad etmək istəyimizdən çəkindirməməlidir. Çünki əks halda, bu şantajdan çəkinsək, torpaqlarımızın geri qaytarılması çətinləşəcək. Yəni Rusiyadakı həmin mərkəzlər pasportları vasitəsilə separatçıları qorumaq istəyirlər. Ən maraqlısı odur ki, Ermənistan bu halda nə edəcək? Axı Dağlıq Qarabağın "müstəqil" və ya Ermənistana aid olmasını istəyirlər. Dağlıq Qarabağdakı ermənilərə kütləvi olaraq Rusiya pasportları paylansa, Dağlıq Qarabağ faktiki Rusiyanın nəzarətinə keçəcək. Bu, nə dərəcədə Ermənistanın maraqlarına cavab verəcək?"

Bir məqamı da unutmaq olmaz. Son vaxtlar Rusiyadan Qarabağa axının olduğunu erməni mənbələri də təsdiqləyir. İşğal altındakı torpaqlarımıza qeyri-qanuni gələn "turistlər"ə Rusiya vətəndaşları başçılıq edir. Həmçinin son illərdə rus milyarder German Sterliqovun Şuşaya ailəsi ilə köçməsi, burada müxtəlif layihələri həyata keçirməsi də ölkəmizə qarşı təxribat idi. Bugünlərdə isə Rusiya yazıçısı Eduard Limonov "türklüyə nifrət"i səbəbindən Qarabağa gəldiyini deyir. Blogger Alksandr Lapşini zamanında Qarabağa qanunsuz səfərlər etməkdən çəkindirməyən, indi isə onun Azərbaycanda məhbusluq həyatı yaşamasından narahatlığını bildirən Rusiyanın Limonov kimilərini bu mövqedən çəkindirməyə həvəsli olmadığı da aydın görünür.

Bu mənada narahatlıqlar var ki, Qarabağda Rusiya vətəndaşlarının yaşaması sonradan ermənilərə rus pasportları verilməsə belə, oraya "təhlükəsizlik" adı ilə müdaxilə üçün Rusiyaya bəhanələr qazandıra bilər. Təbii ki, beynəlxalq qanunlar bunu istisna edir. Amma Ukrayna və Gürcüstan nümunələri göstərdi ki, Moskva beynəlxalq qanunları asanlıqla əzib üstündən keçə bilir.

**E.Şahinoğlu isə bu məsələdə nikbindir:** "Rusiya vətəndaşı olan Lapşini uzaq Belarusdan həbs edib Azərbaycana gətirə biliriksə, Azərbaycan qanunlarını pozan digər Rusiya vətəndaşlarını həbsxanaya ata bilərik. Digər tərəfdən, Azərbaycan ordusu Dağlıq Qarabağ və ətraf rayonların azad olunması əməliyyatına başlasa, Rusiya rəsmən Ermənistan tərəfdən Azərbaycana qarşı savaşmayacaq. Çünki nə qədər olmasa da, Rusiyanın özü də Dağlıq Qarabağı Azərbaycanın ərazisi sayır. Müharibə başlasa, sadəcə, xəbərdar etməli olacağıq ki, bölgəyə qeyri-qanuni gələn xarici ölkə vətəndaşları, o cümlədən Rusiya vətəndaşları Qarabağı tərk etsinlər, yoxsa onların da həyatı təhlükə altında ola bilər".

*****

**Bu arada xəbər yayılıb ki, Ermənistan 8 min əfqan muzdlu əsgəri 5 illik müqavilə ilə Qarabağa gətirib (publika.az). Bunu Beynəlxalq Əsilsiz Erməni İddiaları ilə Mübarizə Dərnəyinin (ASİMDER) rəhbəri Göksəl Gülbəy deyib.**

**Onun sözlərinə görə, əfqan muzdluları Qarabağda təmas xəttinə yerləşdirilib:** "Ötən ilin aprel müharibəsində məğlub olan Ermənistanda valideynlər övladlarını Qarabağda əsgərliyə göndərməmək qərarına gəldilər. Ermənistan rəhbərliyi bu problemi həll etmək üçün pul qarşılığında 8 min əfqan muzdlu döyüşçüsünü ölkəyə gətirərək, təlim keçdi. Muzdlu əsgərlərə 5 il ərzində 3 min dollar maaş veriləcək. Sonda Ermənistan vətəndaşlığı və Avropaya viza sözü verilib".

**G.Göksəl qeyd edib ki, əfqan döyüşçülər İran vasitəsilə Ermənistana gətirilib.** "8 min əfqanın Ermənistana gətirildiyini İran vətəndaşlarının sosial şəbəkələrdə yaydıqları məlumatlardan öyrəndik", - deyə o bildirib. ASİMDER rəhbəri əlavə edib ki, Ermənistan əfqan döyüşçülərdən Türkiyəyə qarşı da istifadə edə bilər.

ATƏT-in Minsk Qrupunun həmsədrləri isə bu həftə Dağlıq Qarabağa - Azərbaycanın işğal olunmuş ərazilərinə gələcəklər. Report Ermənistan KİV-inə istinadən xəbər verir ki, vasitəçilər iyunun 10-da Xankəndində olacaqlar. Əvvəlcədən xəbər verildiyi kimi, həmsədrlər iyunun 19-da Bakıya səfər edəcəklər.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 120 (6734) 6 iyun 2017

**İyunun 4-də gecə saatlarında Böyük Britaniyanın paytaxtı Londonda törədilən silsilə terror aktları Avropanı şoka salıb. Faciə ətrafında yaranan müzakirələrdə ən müxtəlif fikirlər səslənməkdədir. Son aylarda Böyük Britaniyanın terrorun əsas hədəfi olan Avropa ölkəsinə çevrilməsi çoxsaylı suallar doğurub.**

# London terrorunun pərdəarxası - seçkilər, yoxsa...

## İlham İsmayıl: "Dövlətlərin əli ilə terror Britaniya siyasətinə təsir edə bilərmi?"

Son terrorla bağlı əsas fikirlərdən biri kimi 8 iyunda bu ölkədə keçiriləcək parlament seçkiləri göstərilir. Çoxları hesab edir ki, faciə sırf seçkilərin nəticələrinə təsir etmək məqsədilə həyata keçirilib. Terrorun arxasında güclü Avropa dövlətlərinin dayandığı barədə iddialar var. Hətta burada Amerikanın belə adı çəkilir. Nə qədər inandırıcı olmasa da, Britaniya hökumətinin Avropa Birliyini tərk etdikdən sonra terrorun əsas hədəfinə çevrilməsinin təsadüf olmadığı vurğulanır.

**Sabiq MTN polkovniki, təhlükəsizlik üzrə ekspert İlham İsmayıl Böyük Britaniyanın dünya siyasətinə təsir edən ölkə olduğunu bildirdi:** "Hazırda Böyük Britaniyanın əsas gündəmində "Brexit"dir. Bu da referendumla qəbul olundu və Avropa Birliyini hökumət tərk etdi. Digər gündəmdə olan məsələ isə parlament seçkiləridir. Bu iki məsələ siyasi gündəmin əsasını təşkil edir. Düşünək, başqa dövlətlərin əli ilə terror Britaniya siyasətinə təsir edə bilərmi? Təsir nə deməkdir? Belə çıxır ki, leyboristlər bu hadisəni təşkil ediblər ki, indiki hakimiyyətdə olanlar geri çəkilsinlər? Britaniya siyasətində bu mümkün deyil ki, ölkə daxilindəki iki siyasi qurum terror vasitəsilə bir-birilərinə təsir etsinlər. O cümlədən Avropa dövlətlərini də qeyd etmək olar. Terror yolu ilə Britaniyaya birlikdən çıxmaqla bağlı qərarını ləğv etdirə bilərlər? Bunlar mümkün deyil. Bu terrorun Britaniyanın apardığı siyasətə heç bir dəxli yoxdur. Oxşar terror hadisələri əvvəl Fransa və Almaniyada da oldu. Sadəcə, son vaxtlar Britaniyada bir qədər aktivləşib. Buna səbəb olan amillərdən biri də zamanında Britaniyanın digər Avropa dövlətlərindən fərqli olaraq, müsəlmanları daha çox qəbul etməsidir, böyük sayda müsəlmanın da yaşadığı Hindistandan tutmuş ərəb ölkələrinə qədər. Burada məskunlaşsalar da, ideologiyalarından ayrıla bilməyiblər. Zaman-zaman bu ideologiya Avropaya nifrət hissinin yaranmasına səbəb olub. Baxmayaraq ki, zamanında Britaniya onlara qucaq açıb, şərait yaradıb. Bəzi



şəxslər var ki, radikallaşıblar. Bu baxımdan, demək olar ki, bu dövlətin terrorun əsas hədəfinə tuş gəlməyinə hökumətin apardığı siyasət səbəb olmayıb. Son vaxtlar terrorçular daha çox maşına meyl edirlər. Çünki bir ölkədən digərinə silah keçirmək son zamanlarda ciddi nəzarət altına alınıb, xeyli də çətinləşib. Terrorçuların təlimçiləri də sonunda onlara ən azından maşınları götürüb insanların üzərlərinə sürmək tapşırığı verirlər. Azərbaycanda da bu cür halların başverme ehtimalları var. Şükürlər olsun ki, xüsusi xidmət orqanlarımız bunların qarşısını ala bilirlər. Terrorda avtomobillərə önəm verilməsinin digər səbəblərindən biri də ən azından terrorçunun aradan çıxa bilməsidir. Düzdür, sonradan terrorçuları tapırlar. Bu növbəti İslam terrorudur, radikal islamçılar törədiblər. Bu baxımdan, bunu İslam radikalizmi ilə bağlamaq lazımdır".

**Təhlükəsizlik eksperti seçkilərlə bağlı terrorun törədildiyi barədə fikirlərə də toxundu:** "Leyboristlər müxalifətdədir. Ölkədə "Brexit" keçirilib və bunun tərəfdarları hakimiyyətdədir. Ölkə iqtisadiyyatında az da olsa, müəyyən geriləmələr var. Avropanın siyasi mədəniyyətində terror yoxdur. Digər ölkələrə təzyiq baxımından bu metoddan istifadə edirlər. Məsələn, Türkiyəyə təzyiq baxımından bəzi terror təşkilatlarından istifadə edirlər. Özü də bir ölkə daxilində mövcud olan dünya ünlü iki siyasi qurumun bir-birinə qarşı terrordan istifadə etməsi mümkün deyil. Lap olsa belə, bunun nə zamansa üzə çıxma ehtimalı var. Əgər bu üzə çıxsa, təsəvvür edin ki, o siyasi qurumları, hansı vəziyyətə düşə bilərlər. Ölkə siyasətindən tamam silinərlər. Buna kimsə risk etməz. Əksinə, belə hadisələrdə Britaniyada vətənpərvərlik hissləri daha da güclənir. Seçkilərdə kim lazımdırsa, onu da seçəcəklər. Britaniya da İŞİD-ə qarşıdır. Terror təşkilatı da böyük dövlətlərdə belə hadisələr gerçəkləşdirməklə mövcudluğunu göstərmək istəyir, hətta bunun üçün böyük məbləğdə vəsaitlər də ala bilərlər, bir daha terror törətməyəcəkləri ilə bağlı söz verdikdən sonra".

❑ Cavanşir ABBASLI

# İŞİD İraq və Suriyadan kənara yayılacaq - yeni təhlükə

## Qruplaşmanın "əl-Qaidə" metoduna əl atıb "yer altına" çəkiləcəyi haqqında iddialar var; digər bölgələrdə terror hücumlarının sayı arta bilər...

**İŞİD-in Suriya "paytaxtı" Raqqa şəhərinin azad edilməsi əməliyyatı başlayıb. Əməliyyatın iyunun 2-də başladığı və Suriya Demokratik Qüvvələrinin (SDQ) Raqqaya bir neçə kilometr məsafədə yaxınlaşdığı bildirilir. YPG sözçüsü Nuri Mahmud isə həftəsonu "Reuters"ə bildirib ki, artıq kürd qüvvələri Raqqanın kənar məhəllələrinə qədər gedib çatıb, böyük əməliyyat isə bir neçə günə başlayacaq.**



Bazar günü DSQ gücləri Raqqa yaxınlığında yerləşən Mansura qəsəbəsini İŞİD-dən geri alıb. Qəsəbə Raqqaya 20 km məsafədə yerləşir, eyni zamanda bu bölgə strateji əhəmiyyətli hərbi hava bazasının yerləşdiyi Tabqa şəhərinin şərqindədir. Mansurada çoxlu sayda silah-sursat və minalanmış avtomobil ələ keçirilib. Qəsəbə 2014-cü ildən İŞİD-in hərbi təlim mərkəzi funksiyasını yerinə yetirib.

Maraqlıdır ki, ABŞ və kürd qüvvələrinin (SDQ) Raqqa əməliyyatına başladığı bir zamanda Suriya ordusu da Raqqaya doğru irəliləyir. Son günlər sürətlə irəliləyən Suriya ordusu xeyli sayda yaşayış məntəqəsini İŞİD-dən azad edib. Bölgədə strateji əhəmiyyətə malik Raqqa şəhərinin Amerikan-kürd koalisiyasının, yoxsa Suriya ordusunun ələ keçirməsi həm də böyük rəqabət olacaq. Hətta mümkündür ki, daha əvvəl olduğu kimi, bu qüvvələr arasında toqquşmalar da olsun.

Görünən odur ki, Raqqa kürdlərin də olmasa, Suriya ordusunun əlinə keçəcək, yəni istənilən halda İŞİD Raqqanı itirəcək. Artıq son günlərdə İŞİD-in də bu gerçəklə barışdığı hiss olunur. Raqqanı tərk edən hərbi karvanların sayı sürətlə artır. Onlardan bir neçəsi koalisiya və Rusiya aviasiyası tərəfindən vurulub, amma görünən odur ki, İŞİD Raqqa gerçəyi ilə barışıb, indi digər şəhərlərə yerləşməyə çalışır. Lakin istənilən halda həm İraqda Mosulu, həm də Suriyada Raqqanı itirməsi İŞİD-in bütövlükdə sahib olduğu əraziləri itirməsi mənasına gəlir.

Məsələ ondadır ki, 3 il əvvəl İŞİD İraq və Suriya ərazisində 12 milyon insanın yaşadığı ərazilərə sahib idi, nəzarətində olan torpaqlarda böyük həcmdə neft-qaz ehtiyatları istehsal olunur, mühüm nəqliyyat qovşaqları və 100 minlərlə kv.km ərazi vardı. Ancaq indi bunların böyük əksəriyyəti əldən çıxıb və ya çıxmaq üzrədir.

Bu isə İŞİD-in fəaliyyət üslubunu dəyişəcəyi ilə bağlı şərhlərə səbəb olub. Belə ki, Suriya və İraqda torpaqlarını itirən terror təşkilatının "yer altına" çəkiləcəyi, daha əvvəl "əl-Qaidə"nin etdiyi kimi, sadəcə, terror hücumları həyata keçirəcəyi haqda iddialar var.

Doğrudur, son iki ildə İŞİD Avropada - Fransa, Belçika və son olaraq Britaniyada - silsilə terror aktları, ABŞ-də hücumlar həyata keçirir. Ancaq bu qruplaşmanın əsasında silahlı bir birləşmə var və yarandığı gündən məhz müharibə bölgələrində fəaliyyət göstərib.

Digər tərəfdən, hazırda Nigeriya, Misir, Liviya, Yəmən, Əfqanıstan, Pakistan, Rusiya (Şimali Qafqaz) və Filippində İŞİD-ə beyət etmiş, onun bayrağı və təyin etdiyi liderlər tərəfindən idarə olunan silahlı qruplaşmalar mövcuddur. Bu qruplaşmaların bəziləri müəyyən ərazilərə nəzarət edir.

Bu mənada İŞİD Suriyada və İraqda məhv edilsə belə - hərçənd bunun özü də yaxın zamanlarda mümkün deyil - "əl-Qaidə" formatında bir terror təşkilatı olacağı inandırıcı deyil. Çünki İŞİD savaş meydanında yaranmış, daha çox konkret ərazi üzərində fəaliyyət göstərən bir qruplaşma olub, üstəlik, gəlirlərini də məhz ələ keçirdiyi ərazilərdən təmin edib. Deməli, torpaqları itirdikcə gücünü, təbliğat və tərəfdar toplama imkanlarını və əvvəlki mövqeyini itirəcək.

Bu səbəbdən də qruplaşmanın "yer altına" çəkilməsi onun sıradan çıxarılmasına bərabər hadisə ola bilər. O üzdən də İŞİD İraq və Suriya ilə yanaşı, dünyanın digər bölgələrində fəallaşacaq. Terror hücumlarının sayını artıracaq. Ancaq eyni zamanda İraqda və Suriyada əzilən İŞİD-in digər ölkələrdə daha amansız qisas aksiyaları həyata keçirməsi mümkündür. Bu isə təhlükəni daha da artırır.

❑ Kənan RÖVŞƏNOĞLU




# Rusiya ilk dəfə xaricdə "İsgəndər"ləri işə saldı

**Ötən həftə Tacikistanda Rusiya ilə birgə antiterror təlimləri zamanı ilk dəfə "İsgəndər" operativ-taktiki raketlərinin xaricdə döyüş atışı həyata keçirilib. Virtualaz.org xəbər verir ki, "Düşənbə-antiterror" adlı təlimlərdə Rusiya və Tacikistan silahlı qüvvələrinin bölmələri, o cümlədən "İsgəndər-M" operativ-taktiki raketlərindən, reaktiv yaylım atəşi sistemlərindən, artilleriya və xüsusi təyinatlılardan istifadə etməklə şərti terrorçuların hücumunu dəf edərək onların nəzarəti altında olan əraziləri azad etməyi sınaqdan keçiriblər.**

Təlimlərdə "İsgəndər-M" raketlərindən şərti hədəflərə döyüş atışları həyata keçirilib. RT telekanalı həmin təlimlərdən kadrları yayıb.

YENİ MÜSAVAT
N 120 (6734) 6 iyun 2017



# Trampın mediaya münasibəti... dünya mediasının "belini qırdı"

## ABŞ prezidentinin media ilə gərgin münasibətinin tarixçəsi və mümkün fəsadları barədə

**Son dönəmlər dünyada mediaya, media mənsublarına qarşı soyuq münasibət özünü göstərir. Artıq "dördüncü hakimiyyət" adlandırılan qələm əhlinin müdafiəsi əvvəlki qədər yüksək səviyyədə deyil. Ekspertlərə görə, bu, birbaşa Amerikanın yeni prezidentinin mediaya olan soyuq münasibətinin nəticəsidir. Çünki Tramp hələ hakimiyyətə gəlməmişdən öncə media mənsubları ilə soyuq müharibədə idi və prezidentlik dönəmindən sonra da bu soyuqluq yüksələn xətlə inkişaf etdi.**

Tramp hakimiyyətinin ünvanına səsləndirilən ittihamlar isə daha çox onun KİV-lə olan münasibətlərindən qaynaqlanır. O, yeganə ABŞ prezidentidir ki, bu ölkənin tarixində seçkilərin taleyini həll edən media nəhənglərinə qarşı açıq savaş açdı və qalib gəldi. Bu isə həm də nəhəng media qurumlarının arxasında dayanan transmilli korporasiyaların məğlubiyyəti kimi də dəyərləndirilə bilər. Trampa qarşı açılan savaş daha çox media müstəvisindədir və bu prosesin ciddi ictimai dəstək qazanacağı az inandırıcı görünür. ABŞ biznes ölkəsidir. Burada dövlət siyasətini iqtisadi maraqlar tənzimləyir.

Tramp hələ namizəd olan vaxtlarda "The Washington Post", "The New York Times" kimi qəzetlər də daxil, ölkənin aparıcı nəşrlərini və nəhəng televiziya kanallarını ona qarşı cəbhələşməkdə suçlayırdı. İş o yerə çatmışdı ki, Tramp artıq bir neçə aydır, bəzi jurnalistlərin və media qurumlarının özünün seçki kampaniyası tədbirlərində iştirakına qadağa qoymuşdu. Onun media ilə bağlı sərt sözləri tərəfdarlarını da mitinqlərdə zaman-zaman jurnalistlərə qarşı şüarlar səsləndirməyə həvəsləndirirdu. Hətta oxşar mitinqlərin birində jurnalistin təhlükəsizliyindən ötrü xüsusi xidmət orqanlarının əməkdaşları duruma müdaxilə etməli olmuşdu.

2016-cı il oktyabrın 13-də "The New York Times" qəzetində Trampın bir neçə qadınla qeyri-etik hərəkətləri barədə yazı dərc olunub. Bu yazıdan sonra respublikaçı namizədin media ilə münaqişəsi daha da alovlanıb. Axı bu xəbər dərhal digər media orqanlarında da işıqlandırılıb.

Floridadakı çıxışında Tramp həmin xəbərləri "qurama" adlandırıb. Bunu "rəqibi Hillari Klintonun nəzarətindəki korporativ medianın bir mərkəzdən idarə olunan hücumu" kimi qiymətləndirib. **"Ölkəmizdə korporativ media artıq jurnalistika ilə məşğul olmur. Onlar lobbi qrupları, ya da maliyyə dairələri kimi konkret siyasi maraq güdürlər. Bu maraq da kələkbaz Klintonun nəyin bahasına olur-olsun, seçilməsinə nail olmaqdan ibarətdir"**, - deyib Donald Tramp.

"Yeni Müsavat" isə xatırladır ki, hələ 2015-ci ildə ABŞ prezidentliyinə Respublikaçılar Partiyasından ən real namizəd olan Donald Trampla jurnalist arasında qalmaqal yaranmışdı. Tramp keçirdiyi mətbuat konfransı zamanı növbəsini gözləməyərək yerindən danışan jurnalisti qovmuşdu.

İspan dilli "Univision" kanalının müxbiri Xorxe Ramos bir neçə dəfə yerindən qalxaraq Trampa sual verməк istəsə də, Tramp hər dəfə onun suallarından yayınaraq növbəsini gözləməsini istəyib. Ramosun növbəti sual cəhdi isə siyasətçinin səbir kasasının daşmasına səbəb olub. "Sizə söz vermədilər. Qayıdın öz "Univision"unuza". Daha sonra isə mühafizəçilərdən jurnalisti otaqdan çıxarmasını istəyib.

Amma bir müddət sonra sakitləşən Tramp Xorxe Ramosun "yerindən duraraq çığırmasından" şikayətlənib və onun təkrar konfransa qatılmasına etiraz etmədiyini bildirib. Geri dönərək Donald Trampa sual verməк hüququndan istifadə edən Xorxe Ramos prezidentliyə namizədin qalib gələrsə, ölkədəki 11 milyon qanunsuz mühaciri dərhal deportasiya edəcəyi ilə bağlı planlarına görə onu sərt tənqid edib.

2016-cı il oktyabrın 13-də isə Tramp twitter hesabı vasitəsilə bəzi jurnalistləri kəskin tənqid edib. Yazıb ki, Nyu-York qəzeti onun barəsində şər yazıb. Onun dediyinə görə, sözügedən qəzet "başdan ayağa uydurma"ya yol verib. Digər yazısında isə qeyd edib ki, illər öncə 12 yaşlı bir qıza söz atması barədə yazılanlar isə ağ yalandır.

Ondan öncə Trampla bağlı vulqar bir video yayılmışdı. Həmin videoda Tramp qürrələnərək deyirdi ki, "ulduz" olduğu üçün qadınlar ona öpüşmək və əllərindən tutmaq üçün icazə verirlər. Bundan iki gün sonra "New-York Times" və "Palm Beach Post" qəzetləri Trampın icazəsiz olaraq onlara toxunduğu və əllərindən tutduğunu iddia edən üç qadının bəyanatını çap etdi. Bundan başqa, "People"nin jurnalisti də müsahibə zamanı Trampın onun üstünə hücum çəkdiyini bəyan etdi.

CBS kanalı isə bir qədər də irəliyə gedərək, 20 il öncə çəkilmiş bir videonu gündəmə gətirdi. Həmin videoda Tramp 10 yaşlı bir qıza 10 il sonra onunla görüşəcəyini vəd edir. İlk videodan sonra respublikaçılar ondan namizədliyini geri götürməyi təklif etdilər. Bu isə onsuz da medianı sevməyən Trampın "dördüncü hakimiyyət"ə qarşı nifrətini daha da artırdı.

"Əgər Tramp Amerika mediasına görə özünüidarəni itirirsə, bəs dünya liderləri tərəfindən ona edilən tənqidlərin öhdəsindən necə gələcək?" Bunu isə "The Christian Science Monitorun şərhçisi Piter Qrier seçkilər ərəfəsində yazmışdı. Onun dediyinə görə, əgər təkcə "Ey-bi-si"nin müxbiri ilə fikir mübadiləsinə dözmürsə, Vladimir Putinə necə qarşı çıxacaq? Məsələn, bu ilin 31 mayında keçirilən mətbuat konfransında Donald Tramp veteran təşkilatlarına xeyriyyə yardımı etmədiyi iddiası ilə jurnalistlərin tənqidinə məruz qalmışdı. O, reportyorlardan birini "yaramaz" adlandıraraq, onun səxavətini etiraf etməməkdə ittiham etmişdi. Belə ki, 28 yanvarda Tramp veteranlara kömək məqsədilə 6 milyon dollar yığıldığını, 1 milyon dolları isə öz cibindən bu məqsədlə verdiyini açıqlamışdı. Amma mayın sonunda "The Washington Post" xəbər verdi ki, bəzi veteran təşkilatları həqiqətən də çeklər alıblar. Amma bu, 6 milyon dollar olmayıb. Bundan başqa, Trampın özü bu işə bir sent belə xərcləməyib.

Mətbuat konfransında incimiş, əsəbi və aqressiv şəkildə barəsində yazılanları yalanlayan Trampın bu reaksiyası isə siyasi şərhçilər tərəfindən ciddi tənqid olunub. Onlar təhlillərində Tramp barədə belə yazıblar: **"Ümumilikdə Tramp yaralı insan təəssüratı bağışladı. Amma hesab edək ki, o, haqlı idi. Bəs gələcəkdə hansısa xarici ölkənin liderləri onun bu reaksiyalarını görəndən sonra şəxsi məqsədləri naminə ABŞ prezidentini qıcıqlandırmaq, hirsləndirmək istəsə, necə olacaq? Şəxsi qarşılıqlı münasibətlər geosiyasətdə ciddi əhəmiyyət daşıyır. Prezident onları düzgün qurmalıdır".** Bunu da siyasi analitik Cey Nordlinqer qeyd edib.

Gördüyünüz kimi, Trampla medianın münasibətləri hər zaman gərgin olub. Və bu, bir günün "məhsul"u deyil. Tramp hələ prezidentliyə namizəd olan gündən azad mediaya qarşı qıcıqlı tövrləri ilə fərqlənib. İndi isə bunu davam etdirir və Ağ Ev üçün hazırda amerikan jurnalistlərin "qara siyahısı" mövcuddur. Bu isə bütün dünya jurnalistləri üçün ciddi təhlükə siqnalıdır. Çünki dünyada söz azadlığını ilk növbədə müdafiə edən Amerika olub. İndiki halda Amerikanın birinci adamı mediaya qarşı soyuq savaş açıbsa, bunun ümumən dünya jurnalistikası üçün müsbət nəticə verməyəcəyi gözləniləndir.

❑ **Sevinc TELMANQIZI**



## Səudiyyə Ərəbistanı Həcc ziyarətinə gedəcək zəvvarlara xəbərdarlıq edib

**Səudiyyə Ərəbistanı bu il Həcc ziyarətinə gedəcək zəvvarlara xəbərdarlıq edib.**

Qafqaz Müsəlmanları İdarəsindən (QMİ) APA-ya bildirilib ki, bu barədə sənədlərin qəbulu zamanı Səudiyyə Ərəbistanının Azərbaycandakı səfirliyinin təqdim etdiyi və zəvvarların imzaladığı müqavilənin xüsusi müddəa bölümündə qeyd olunub. Müddəada göstərilib ki, narkotik vasitələrin, spirtli içkilərin və təbliğat xarakterli ədəbiyyatların Səudiyyə Ərəbistanına aparılması qəti qadağandır. Ölkəyə narkotik aparanlar ölüm hökmü (edam) cəzasına məhkum edilir.

Müqavilədə o da qeyd olunur ki, buna görə təşkilatçı (QMİ) məsuliyyət daşımır. Bütün məsuliyyət zəvvarın öz üzərinə düşür.

Qeyd edək ki, Azərbaycandan Həcc ziyarətinə ilk zəvvar qrupu avqustun 24-də, növbəti qruplar isə avqustun 25-26-da yola düşəcək. Zəvvarların qayıdışı sentyabrın 12-si, 13-ü və 14-nə nəzərdə tutulub. Yaxın Şərqdəki vəziyyətlə əlaqədar bu il də zəvvarlar avtobusla yox, təyyarə ilə Səudiyyə Ərəbistanına gedəcəklər. Uçuşları AZAL həyata keçirəcək.

Builki Həcc ziyarətinə sənəd qəbulu yanvarın 26-da başlayıb və artıq başa çatıb. Əvvəlki illərdən fərqli olaraq, bu il zəvvarlar üçün fərqli paketlər (VİP və nisbətən ucuz) təqdim edilməyib. Bir nəfərlik ziyarət paketinin qiyməti 3850 dollardır. Azərbaycanlı zəvvarlar üçün 600 nəfərlik kvota nəzərdə tutulur. Ötən il kvota 1040 nəfər olub. Azərbaycanda Həcc ziyarətinin təşkilatçısı yalnız QMİ-dir.

YENİ MÜSAVAT
N 120 (6734) 6 iyun 2017

# Xanımı nazirlikdə işləyən oğul atasını evsiz qoydu

## "Atasını küçələrdə qoyan oğul sayəsində 80 yaşımı da məhkəmə zallarında başa vurmuşam"

**80 yaşlı Bakı sakini Abuzər Qədimov redaksiyamıza şikayətlə müraciət edib. Onun sözlərinə görə, doğma övladı onu aldadaraq evsiz qoyub:**



"2012-ci il oktyabrın 8-də həyat yoldaşım rəhmətə getdikdən sonra mənimlə birgə yaşamaq şərti ilə oğluma ev aldım. Belə ki, hazırda yaşadığı Nəsimi rayon, Asif Məhərrəmov küçəsi bina 45, mənzil 43 ünvanındakı 2 otaqlı evi bacısına vermək şərti ilə Yasamal rayonu, Mətbuat prospekti 501, ev 6 a, 34 saylı 4 otaqlı mənzili oğlum Qədimov Aqşinin adına bağışladım. Mənim məqsədim mirasımı övladlarım arasında ədalətli bölmək idi. Oğlum mənim gözdən 2-ci qrup əlil olmağımdan, etibarımdan istifadə edərək, kooperativin sədrinə guya mənim yaşlı olduğum üçün sənədləşmə işini ona tapşırdığımı və qızımı öz mənzilinə qeydiyyata saldığını bildirib, yaşayışı yerindən saxta F2 arayış alıb. Notarial kontorda bağışlama müqaviləsi İqtisad Universitetində müəllim vəzifəsində çalışan oğlum Qədimov Aqşin və Ədliyyə Nazirliyinin Ümumi şöbəsinin rəis müavini vəzifəsində çalışan həyat yoldaşı Əhmədova Ülviyyə Mahmud qızının iştirakı ilə bağlanarkən hər ikisi müqavilənin saxta F2 sənədi əsasında olmasını bilsələr də məndən gizlədiblər. Beləliklə, məni, qızımı, kooperativin sədrini, notarial kontoru aldadaraq, etibardan sui-istifadə edərək özgənin mənzilini mənimsəyiblər. Bu azmış kimi, guya qızımın həmin mənzildə yaşamadığı haqda saxta akt tərtib edərək məhkəməyə təqdim edib. Nəsimi rayonunda (Asif Məhərrəmov küçəsi, ev 45, mənzil 43) yerləşən mənzil adıma bağışlansa da, orada qeydiyyatda olan oğlumun həyat yoldaşı və 2 övladı bilərəkdən notarial qaydada razılıq ərizəsi vermədiklərindən bu mənzili qızıma bağışlaya bilmədim".

**Şikayətçi qeyd edib ki, mənzilini geri qaytarmağı tələb edərkən oğlu tərəfindən nalayiq söyüşlərlə təhqir edilib:** "Bildirdi ki, "bu ev mənimdir, o biri də azyaşlı oğlumundur. Həyat yoldaşım da səninlə yaşaya bilməz, xasiyyətin ağırdır. Heç kimə ev vermək fikrim yoxdur. Məhkəməyə də versən sən ölənəcən bu işi illərlə uzadacam".

Bu səbəbdən bağışlama müqaviləsinin ləğv edilməsinə dair 2013-cü il oktyabrın 14-də Yasamal Rayon Məhkəməsinə iddia ərizəsi ilə müraciət etmişəm. Məhkəmə istintaqı getdiyi zaman məqsədli şəkildə məhkəmənin gedişatına mane olmaq üçün sözügedən mənzilə pasport qeydiyyatına düşüb. Eyni zamanda Ədliyyə Nazirliyinin ümumi şöbəsində rəis müavini vəzifəsində çalışan həyat yoldaşı Ülviyyə Əhmədovanın adından istifadə edərək məhkəməyə təsir göstərib. Gəlinin öz tələbə yoldaşı Zaman Afradovla müqavilə bağlayıb onun əli ilə məhkəmə prosesini süni surətdə müxtəlif bəhanələrlə 2013-cü ildən 3 il müddətinə təxirə salıb. Sonradan isə şübhələrdən yayındırmaq üçün başqa vəkillə müqavilə bağlayıb. Uzun süründürməçilikdən sonra Yasamal Rayon Məhkəməsində və Apelyasiya Məhkəməsində iddiam təmin edilib. Lakin Ali Məhkəmə qətnaməni qismən ləğv etdi. Sonradan isə qətnamə qanunsuz şəkildə dəyişdirilərək elan olunduğu kimi deyil, tam ləğv edildi".

**Abuzər Qədimov məsələ ilə bağlı bir sıra qurumlara, o cümlədən Prezident Administrasiyasına, Ədliyyə Nazirliyinə, Məhkəmə Hüquq Şurasına, Milli Məclisə, Ombudsmana və digər rəsmi qurumlara müraciət etdiyini bildirib:** "Buna baxmayaraq, artıq 4 ildir ki, bu məsələ nə araşdırılır, nə də rəsmi bir cavab verilmir. İş cavabdehin təsiri nəticəsində artıq 3-cü dəfədir ki, Ali Məhkəmədə qanunsuz ləğv edilərək Apelyasiya Məhkəməsinə yenidən baxışa qaytarılır. Artıq haqq-ədalətin bərpa olunmasına inamım qalmayıb. Atasını küçələrdə qoyan oğul sayəsində 80 yaşımı da məhkəmə zallarında başa vurmuşam. Bundan sonra da oğlumun vəkil vasitəsilə hər məhkəmə prosesini qəsdən təxirə salmaq üçün qaldırdıqları vəsatətlərə, yersiz ərizələrə görə illərlə məhkəmə proseslərində iştirak etməyə nə yaşım, nə də səhhətim imkan vermir. İş yenidən Apelyasiya Məhkəməsinə verilib. Mətbuat vasitəsilə aidiyyəti qurumlardan xahiş edirəm, yaşlılığımı, xəstəliyimi, aldadıldığımı nəzərə alaraq mənim işimə köməklik göstərilsin".

**Şikayətdə adı hallanan qurum və ya şəxslərin də mövqeyini dərc etməyə hazırıq.**

**Xalidə GƏRAY**



## Moskvada azərbaycanlı bacısının gözü qarşısında intihar etdi

**Göygöl rayon sakini Rusiya Federasiyasının Moskova şəhərində çoxmərtəbəli binadan özünü ataraq intihar edib. "Report"un Qərb bürosunun məlumatına görə, 38 yaşlı Aftandil Vidadi oğlu Məmmədov Moskva şəhərində kirayə yaşadığı hündürmərtəbəli binadan özünü ataraq intihar edib.**

Məlumata görə, Rusiya Federasiyasına işləməyə gedən A.Məmmədovun ailə problemləri olub. A.Məmmədov intihar edən zaman onun bacısı da yanında olub. O, pəncərəyə çıxıb özünü atmaq istədiyi an bacısı onu saxlamağa çalışsa da buna nail ola bilməyib.

Hadisə yerində keçinən A.Məmmədovun meyiti tibbi ekspertizadan sonra yaxınlarına verilib.



## DİN 5 rayonda narkotik əməliyyatı keçirdi

**Daxili İşlər Nazirliyi 5 rayonda narkotik əməliyyatı keçirib. H.Z.Tağıyev qəsəbə sakini, əvvəllər məhkum olunmuş Novruz Həsənovdan 470 qram marixuana götürülüb. Lənkəranda isə Anar Əliyevdən və əvvəllər məhkum olunmuş Aşur Məhərrəmovdan 2 kiloqram 215 qram heroin, 24 kiloqram 075 qram tiryək və 9,351 qram metamfetamin götürülüb.**

Salyanda Seyran Hüseynovun həyətyanı sahəsinə baxış zamanı oradan kultivasiya yolu ilə yetişdirilən 7 ədəd çətənə kolu aşkar edilərək götürülüb.

Kürdəmirdə Şımıxlı kənd sakini, əvvəllər məhkum olunmuş Tural Məcidovun həyətyanı sahəsinə baxış zamanı oradan kultivasiya yolu ilə yetişdirilən 18 ədəd çətənə kolu aşkar edilərək götürülüb.

Neftçalada Hicran Cəfərovun evinə baxış zamanı oradan 95 qram marixuana, həyətyanı sahəsindən isə kultivasiya yolu ilə yetişdirilən 148 ədəd çətənə kolu aşkar edilərək götürülüb (bakupost.az).

**İzrail ənənəsi əsasında özəl tibbi sahədə 20 illik təcrübə!**
**XƏSTƏLİKDƏN ƏZAB ÇƏKƏN İNSANLARA ƏSASƏN KİŞİLƏRƏ!**
**DİQQƏT!!! AXIRINCI ŞANS!!!**

Azərbaycanda və yaxud xaricdə diaqnozun təsdiqi və tam müalicəsi mümkün olmayıbsa, **doktor VAİZ SƏMƏDOV** şəxsi tibbi metodikası ilə Sizin uğurlu və daha qarantili olaraq aşağıdakı xəstəliklərinizi keyfiyyətli müayinə və müalicə edə bilər.

- **Diaqnozu bilinməyən ağır hallar;**
- **Xərçəngə şübhəli olan prostat düyünlü adenoması. Prostatitlər; Qipertrofiya və ya Atrofiya**
- **Cinsi zəiflikdən tam impotensiyadək, marağın və aktların azalması;**
- **Vaxtından tez toxum ifrazatı (səbəbdən asılı olmayaraq)**
- **Toy gecəsinin uğursuzluqları (kişi tibbi problemlər)**
- **Sidikdə və ya spermada qan;**
- **Spermanın azalması və itməsi;**
- **Kişi cinsi orqanının birdən əyilməsi və balacalması;**
- **Oğlan uşaqlarında cinsi orqanların (penisin və xayaların) inkişafdan qalması;**
- **Hormonal və infeksion səbəbli sonsuzluq (kişi və qadınlarda);**
- **Tala-tala və hərtərəfli saçların tökülməsi;**
- **Gecə-gündüz uşaq və böyüklərdə sidik aktların pozulmaları; Enurez**
- **50 yaşdan sonra oynaqlarda və onurğada baş verən qeyri travmatik ağrılar və hərəkət çətinlikləri;**
- **Psixo-nevroloji gərginlik, yuxusuzluq, qorxu, yaddaşın azalması və digər qəribə olan şikayətlər.**
- **Zöhrəvi xəstəliklərdən sonra qalıqlar və ağırlaşmalar.**

**D-r V.Səmədovun əsas tibbi prinsipi - keyfiyyətli və təkrarsız müalicə aparmaq üçün xəstəliyin əsl və bütün səbəblərini aşkar etmək zəruridir.**

*Qəbula yazılmaq və ünvanı öyrənmək üçün saat 11-dən 23-ə dək,* ***(050) 213-88-05*** *nömrəsinə,* ***d-r Vaiz Səmədova*** *zəng etmək olar.*

Qəbul növbə ilə hər gün saat 12-dən sonra başlayır.